Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

19 DEKABR 2019-cu il

№ 226 (4124)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTAN «RUSİYANIN QAFQAZDAKI FORPOSTU» TƏHQİRAMİZ STATUSUNU DA İTİRİR...

■ səh. 6 ■

Eyni vaxtda həm Ukrayna, həm də Rusiya ilə əməkdaşlıq strateji relslərə keçirilir - Azərbaycan diplomatiyasının unikal nəticələri...

■ səh. 3 ■

Ukraynanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi nə deməkdir - Ermənistanın mövqeləri bir-bir sarsılır...

■ səh. 3 ■

Türkiyə-Rusiya yaxınlaşması Qarabağ məsələsində mühüm yeniliklərə yol açır - Ermənistan narahatdır...

■ səh. 9 ■

İctimai rəydə MSK-da da dəyişikliklərin zəruriliyi barədə fikirlər dolaşır - əks arqumentlər nə deyir...

■ səh. 4 ■

Tramp ABŞ Konqresinin sədrini antikonstitusion sui-istifadədə ittiham etdi - "250 illik tariximizdə belə şey olmayıb"...

■ səh. 4 ■

Cavid Qurbanov Bakıda tramvayın yeni taleyini həll etdi, ancaq Bakıda tramvay xətləri salına biləcəkmi...

■ səh. 12 ■

İlin şairləri, ilin artistləri, ilin deputatları, ilin şoumenləri - yeni "əcaib fəxri adları" əsasən reputasiyası qeyri-müəyyən qurumlar paylayır...

■ səh. 14 ■



## Azərbaycan və Ukrayna arasında hərbi əməkdaşlığın mühüm mərhələsi başladı...

■ səh. 8 ■



Hələlik 11 siyasi partiya - 9 fevral seçkilərini çoxpartiyalı saymağa əsaslar varmı...

■ səh. 5 ■



UNESCO-nun məşhur komitə vitse-sədrliyi Azərbaycanda - ermənilərin saxta «irs aksiyalarını» dayandıra bilərik

■ səh. 10 ■

Yanmış «EuroHome»un sahibi sahibkarlara söz verdi, ancaq necə...

■ səh. 12 ■

■ səh. 7 ■

Dost Gürcüstan düşməmimiz Ermənistana böyük dənizlərə çıxış imkanı verəcəkmi...



■ səh. 5 ■

Müsavatın 2000-ci və 2019-cu ildəki deputatlığa namizədlər siyahısını müqayisə edin - ziyalılar ordusu partiyadan niyə qaçdı...



■ səh. 11 ■

Ukrayna Prezidenti Azərbaycanın yol çəkənlərini öz ölkəsində görmək istədi... Niyə...



■ səh. 11 ■

ÜDM-də özəl sektorun payı 84 faizə çatdı - Azərbaycan üçün qeyri-adi göstərici...



■ səh. 13 ■

İdxal olunan xəritə, qlobus kimi məhsullarda milli ideologiyamızın əsaslarının mühafizə problemi...



## Prezident İlham Əliyev Qazaxıstan Parlamenti Məclisinin Sədrini qəbul edib

**Prezident İlham Əliyev dekabrın 18-də Qazaxıstan Parlament Məclisinin Sədri Nurlan Niqmatulinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Nurlan Niqmatulin Qazaxıstanın birinci Prezidenti-Elbaşı Nursultan Nazarbayevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin salamlarını Prezident İlham Əliyevə çatdırıb. Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevə Türk Şurasının üzv ölkələrinin prezidentlərinin birgə qərarı ilə Türk Şurasının fəxri sədri adının verilməsinə görə qazax xalqı adından səmimi minnətdarlığını bildirən qonaq Bakıda gedən böyük inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını deyib. Prezident İlham Əliyev Qazaxıstanın birinci Prezidenti-Elbaşı Nursultan Nazarbayevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Qazaxıstanın birinci Prezidenti-Elbası Nursultan Nazarbayevə və Qazaxıstan dövlətinin başçısına çatdırmağı xahiş edib. Görüşdə Qazaxıstanın birinci Prezidenti-Elbası Nursultan Nazarbayevlə Azərbaycanın ümummilli lideri Heydər Əliyev arasında şəxsi dostluğun xalqlarımız arasında münasibətlərin inkişafında böyük rol oynadığı vurğulanıb, Prezident İlham Əliyevin ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsi işinə verdiyi töhfələr xüsusi qeyd olunub. Söhbət zamanı Azərbaycanla Qazaxıstan arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat, energetika və iqtisadi sahələrdə uğurla inkişaf etdiyi bildirilib, dövlət başçıları arasında görüşlərin bu münasibətlərin möhkəmləndirilməsi baxımından önəmi vurğulanıb. Görüşdə, həmçinin, Azərbaycanda yaxşı investisiya mühitinin olduğu, ölkəmizin investisiyalar üçün cəlbediciliyinin beynəlxalq qurumlar tərəfindən də təsdiq edildiyi bildirilib. Söhbət zamanı parlamentlərarası əlaqələrin əhəmiyyətinə toxunulub, TÜRKPA-nın Azərbaycanda keçirilən IX plenar iclasında Qazaxıstanın da yüksək səviyyədə təmsil olunduğu və bu tədbirin münasibətlərimizin inkişafına töhfə verdiyi qeyd edilib.

## YAP-da kadr dəyişikliyi olub, üç nəfər yeni vəzifəyə seçilib

**Yeni Azərbaycan Partiyası (YAP) İcra Katibliyi ilk təşkilatının iclası keçirilib. "Trend"in məlumatına görə, iclasda çıxış edən YAP İcra katibinin müavini Siyavuş Novruzov ilk təşkilatın ötən müddət üzrə hesabatını səsləndirib.**




YAP İcra katibinin müavini ilk təşkilatlarının fəaliyyətinin daha da gücləndiriləcəyini, çevikliyinin artırılacağını bildirib. S.Novruzov, həmçinin, partiyanın qarşıdan gələn bələdiyyə və parlament seçkilərinə də yüksək səviyyədə hazırlaşdığını qeyd edib. Sonda təşkilati məsələlərə baxılıb, 15 nəfərdən ibarət YAP İcra Katibliyi ərazi ilk partiya təşkilatının İdarə Heyətinə üzv, Ramilə Bədəlova ərazi partiya təşkilatına sədr, YAP İcra Katibliyi İşlər İdarəsinin müdiri Mahir Abbasəliyev və "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev müavin seçiliblər.

## Elvin İsayev ictimaiyyətə müraciət etdi - etdiyim cinayətlərə görə tutulmuşam...

**Son günlər bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə Ukrayna miqrasiya qanunvericiliyinin tələblərini pozduğuna görə Azərbaycana deportasiya olunmuş Elvin İsayevin guya hüquqlarının pozulması, o cümlədən istintaq zamanı təzyiqlərlə üzləşəcəyi barədə paylaşımlar edilərək, onun hüquqlarının müdafiəsi məqsədilə sosial şəbəkələrdə qruplar yaradılması barədə çağırışlar yayılıb.**

Tutulmasının siyasiləşdirilməsinin əleyhinə olan Elvin İsayev baş verənlərlə əlaqədar vəkili Gülarə İlyasova vasitəsilə ictimaiyyət nümayəndələrinə müraciət ünvanlayıb.

E.İsayev vəkili vasitəsilə "Trend"ə göndərdiyi müraciətində etdiyi cinayətlərə görə tutulduğunu, hüquqlarının vəkili tərəfindən müdafiə olunduğunu və ona hər hansı təzyiqin edilmədiyini, törətdiyi əməllərin siyasiləşdirilməsinin əleyhinə olduğunu vurğulayıb.

# Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədrini qəbul edib



**Prezident İlham Əliyev dekabrın 18-də Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Mustafa Şentop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçısına çatdırıb.

Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirərək, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə bu yaxınlarda TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasiminin tarixi hadisə olduğu vurğulanıb və bu, Türkiyə-Azərbaycan birliyinin növbəti nümayişi kimi dəyərləndirilib. Ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, enerji sahələrində uğurlu nəticələr verdiyi bildirilən görüşdə dövlət başçıları arasında mütəmadi görüşlərin bu əlaqələrin genişləndirilməsi işinə xüsusi töhfə verdiyi qeyd olunub.

Söhbət zamanı ikitərəfli münasibətlərimizin möhkəmlənməsində parlamentlərarası əməkdaşlığın rolu vurğulanıb, həmçinin TÜRKPA-nın IX plenar iclasının əhəmiyyətinə toxunulub, Azərbaycanın Türk Şurasına uğurla rəhbərlik etməsinin və təşkilata dünyada marağın getdikcə artmasının önəmi qeyd olunub, bu qurum çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanların olduğu bildirilib.

# Ceyhun Bayramov yeni imtahan modelinin tətbiqinə çox ciddi ehtiyac olduğunu dedi

**Ali məktəblərə qəbul üçün hazırlanan yeni imtahan modeli XXI əsrin tələb olunan bacarıqlarının ölçülməsini özündə ehtiva edir.**



Bu modeldə tələb olunan riyazi və məntiqi təfəkkür, mətnlə işləmək, yazı qabiliyyəti və digər bacarıqların ölçülməsi olduqca vacibdir.

"Trend"in məlumatına görə, bunu Təhsil naziri Ceyhun Bayramov "Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər" adlı konfransda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, imtahan modellərinin dəyişdirilməsi təhsil sistemində tez-tez baş verən proses deyil: "Biz uzun illər ərzində imtahanlar barəsində danışarkən əsasən imtahanın dürüstlüyü, ədalətliliyi prinsiplərinə diqqət etmişik. Təbii ki bu, çox vacib və əhəmiyyətlidir. Eyni zamanda qeyd etməliyik ki, uzun müddət ərzində ölçülməyən biliklər unudula bilər.

Ona görə də bu gün əmək bazarında tələb olunan bir sıra bacarıqlara diqqət yetirdikdə tənqidi təfəkkür, qeyri-standart yanaşma, komandada işləmək, riyazi təfəkkür, kreativlik və bir sıra bu kimi kompetensiyalara diqqət yetirdikdə görürük ki, məzunlarımızın bu sahədə kifayət qədər çox axsadığı istiqamətlər mövcuddur. Bütün bunları nəzərə alaraq hesab edirəm ki, yeni imtahan modelinin tətbiqinə çox ciddi ehtiyac var. Təhsil Nazirliyi son bir neçə il ərzində Dövlət İmtahan Mərkəzi ilə bu istiqamətdə sıx əməkdaşlıq edib".

C.Bayramov əlavə edib ki, yeni imtahan modelində ali məktəbə qəbul zamanı buraxılış imtahanlarının nəticələrinin nəzərə alınması çox əhəmiyyətli bir dəyişiklikdir.

Nazirin fikrincə, orta məktəblərdə 11 il ərzində keçirilən tədrisin ölçülməsi, onun nəticələrinin təhsilin növbəti pilləsinə daxil olan zaman nəzərə alınması olduqca vacibdir: "Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi sorğuya əsasən görürük ki, respondentlərin 60 faizi məhz yeni imtahan modelində orta məktəblə ali məktəb arasında əlaqənin qurulmasını çox müsbət qəbul edib".

# Baş Prokurorluq Ukraynada saxlanaraq ölkəyə gətirilən Elvin İsayev barəsində məlumat yaydı

**Respublika Baş Prokurorluğunun məlumatına görə, Azərbaycan vətəndaşı İsayev Elvin İltixam oğlu Ukrayna miqrasiya qanunvericiliyinin tələblərini pozduğuna görə 12 dekabr 2019-cu il tarixdə Azərbaycana deportasiya olunub və Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində açılan cinayət işi üzrə barəsində Nəsimi Rayon Məhkəməsinin 22 avqust 2019-cu il tarixli qərarı əsasında seçilmiş həbs qətimkan tədbirinin icrası ilə əlaqədar dekabrın 14-də Penitensiar Xidmətin 1 saylı İstintaq Təcridxanasına yerləşdirilib.**

Azərbaycan Respublikası ərazisində kütləvi iğtişaşlara və dövlət əleyhinə yönələn açıq çağırışlar etməsi faktları üzrə 15 avqust 2019-cu il tarixdə Respublika Baş Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə təqsirləndirilən şəxs Elvin İsayevin müdafiə hüququ cinayət-prosessual qanunvericiliyin tələblərinə müvafiq qaydada tam təmin edilərək, xahişi əsasında Bakı şəhəri 12 saylı vəkil bürosunun vəkili Gülarə İlyasovanın iştirakı ilə ona ittiham elan edilib, ittihamın mahiyyəti, təqsirləndirilən şəxs kimi hüquq və vəzifələri izah olunmaqla o dindirilib.

Hazırda cinayət işi üzrə tam, hərtərəfli və obyektiv istintaq aparılmaqla cinayətin digər iştirakçılarının tam dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Elvin İsayevin saxlanma şəraiti və səhhəti normaldır.

# Eyni vaxtda həm Ukrayna, həm də Rusiya ilə əməkdaşlıq strateji relslərə keçirilir - Azərbaycan diplomatiyasının unikal nəticələri...

**Məlum olduğu kimi, Ukrayna Prezidenti Vladimir Zelenski 16-17 dekabrda Bakıda rəsmi səfərdə oldu. Səfər çərçivəsində Ukrayna lideri Prezidenti İlham Əliyev və Baş nazir Əli Əsədovla danışıqlar apardı. Həmçinin, Ukrayna və Azərbaycan arasında prioritet sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə yönəlmiş bir sıra ikitərəfli sənədlər imzalandı.**

*”Moskva yaxşı bilir ki, Bakı-Kiyev əlaqələri ona qarşı yönəlməz və Azərbaycan etimad ediləcək dövlətdir”*

Dövlət başçılarının iştirakı ilə iki ölkə arasında Biznes Forumu keçirildi. Zelenski, eyni zamanda, Azərbaycanın Ukrayna icmasının nümayəndələri ilə görüşdü.

Onu da qeyd edək ki, bu, V.Zelenskinin Cənubi Qafqaza ilk rəsmi səfəri idi. Ukraynanın yeni Prezidentinin məhz Azərbaycana önəm verməsi iki ölkə arasında yüksək səviyyəli münasibətlərin göstəricisidir. Düzdür, Azərbaycan-Ukrayna münasibətləri həm sovet dönəmində, həm də SSRİ-nin süqutundan sonra müsbət məcrada inkişaf edib. İki ölkə arasında çoxşaxəli əlaqələr mövcuddur. Ancaq o da məlumdur ki, 2014-cü ildə Ukraynada baş verən məlum hakimiyyət dəyişikliyindən sonra bu ölkənin Rusiya ilə münasibətləri kəskin şəkildə pisləşib. Ukrayna MDB-ni tərk edib. Bütün bunlara baxmayaraq, Azərbaycan həm Rusiya, həm də Ukrayna ilə çox yaxşı münasibətlərə malikdir. Bir-birilə kəskin ziddiyyətlərə malik olan ölkələrlə eyni vaxtda yüksək münasibətlər qura bilmək Azərbaycan diplomatiyasının uğurundan xəbər verir.

Maraqlıdır, Azərbaycan buna necə nail olur?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə Azərbaycanın buna nail olmasını ölkənin müstəqil siyasət yeritməsi ilə əlaqələndirdi: "Azərbaycan regionda müstəqil xarici siyasətə malik olan, iqtisadi cəhətdən kifayət qədər nüfuzlu ölkədir. Bütün dövlətlərlə Azərbaycan qarşılıqlı əməkdaşlıq formatında əlaqələrin inkişafında maraqlı olub. Məhz bu istiqamətdə xarici siyasətini qurub. Ölkəmiz Rusiya ilə qonşu ölkədir

***Məhəmməd Əsədullazadə:** ”Bu, Azərbaycanın müstəqil siyasət yeritməsi ilə əlaqədardır”*



və çalışır ki, qonşuluq əlaqələrini yüksək səviyyədə saxlasın və qarşılıqlı şəkildə əməkdaşlığı genişləndirsin. Hazırda Rusiya ilə əməkdaşlıq yüksək səviyyədədir və hər iki tərəfi narazı salan ciddi məqamlar yoxdur. Azərbaycan öz müstəqil siyasətini qurarkən, digər ölkələrlə əməkdaşlığı inkişaf etdirəndə bunu digər ölkənin əleyhinə yönəltmir. Məhz Ukrayna ilə Azərbaycanın əlaqələri də bu kontekstdə davam edir. Moskva yaxşı bilir ki, Bakı-Kiyev əlaqələri ona qarşı yönəlməz və Azərbaycan etimad ediləcək dövlətdir.

Ona görə də Ukrayna və Azərbaycan arasında hərbi-siyasi, iqtisadi əlaqələr yalnız hər iki ölkənin milli maraqlarına uyğun həyata keçirilir. Hesab edirəm ki, Azərbaycan tərəfi və Ukraynanın mövqeyi tam aydın şəkildə bütün qonşu ölkələrə məlumdur. Rəsmi Bakının bu balanslaşdırılmış siyasəti nəticəsində Ukrayna-Azərbaycan əlaqələri Rusiya ilə münasibətlərə mənfi təsir etmir".

***Vidadi ORDAHALLI***

# Ukraynanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi nə deməkdir - Ermənistanın mövqeləri bir-bir sarsılır...

**Azərbaycanda rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski bir sıra vacib bəyanatlarla çıxış edib. V.Zelenski deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevlə söhbətinin əsas hissəsini milli və regional təhlükəsizlik məsələləri təşkil edib:**



"Biz burada Dağlıq Qarabağ münaqişəsi və Ukraynanın şərqində baş verən münaqişəni müzakirə etdik. Biz bir-birimizi ölkələrimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi məsələsində də dəstəkləyirik. Burada söhbət beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində bərpadan gedir. Bu baxımdan bu prinsip həm ikitərəfli təmaslarda, həm də beynəlxalq təşkilatlar çərçivəsində də bizim əməkdaşlığı özündə ehtiva edir. Bu, bizim ölkələrimizin arasında olan münasibətlərin səviyyəsinin göstəricisidir. Biz həm regional, həm də qlobal səviyyədə birgə mövqedən çıxış edirik. Azərbaycana 2020-ci ildə GUAM-a uğurlu sədrlik arzu edirəm".

***Qabil Hüseynli:** ”Artıq Ermənistan əyani şəkildə görməlidir ki, dünya ölkələri və onların başçıları separatizmi, işğalı, ilhaqı qəbul etmir və onunla barışmırlar”*

Faktiki olaraq görünür ki, Bakıda hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü qeyd-şərtsiz dəstəklədiyi, separatizmi pislədiyi vurğulanıb. Ukrayna Prezidentinin Bakıda dediyi "söhbət beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünün bərpasından gedir" cümləsi Dağlıq Qarabağ münaqişəsində Ukraynanın, birmənalı olaraq, Azərbaycanın yanında yer aldığını bir daha təsdiq edir. Bununla Zelenski, faktiki olaraq, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, Ermənistanın isə işğalını pislədiyinə dair konkret mövqe ortaya qoymuş olub. Zelenskinin bu korrekt mövqeyi nə anlama gəlir və bunun Ermənistan üçün hansı əhəmiyyəti ola bilər?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Zelenski, əslində, həqiqəti danışıb: "Ermənilərin onun çıxışından dərin narahatlıq keçirdikləri aydındır. Ancaq gərək bu narahatlığı əməllərində də ifadə edib, işğaldan, separatizmdən əl çəksinlər. Ukrayna Prezidenti beynəlxalq hüququn göstərdiyi bütün müddəaları daha geniş şəkildə, ətraflı izah edib. Onun dediklərinin hamısı beynəlxalq hüququn normalarıdır və dünya tərəfindən, birmənalı olaraq, qəbul edilir. O öz ölkəsi və Azərbaycanın timsalında baş verənləri aqressiv separatizm, dövlətlərin ərazi bütövlüyünü hansısa ölkələrə söykənərək pozmaq cəhdi kimi dəyərləndirib. Üstüörtülü şəkildə hər iki ölkəyə dəyən zərbənin eyni mərkəzlər tərəfindən istiqamətləndirildiyini söyləmək istəyir. Artıq Ermənistan əyani şəkildə görməlidir ki, dünya ölkələri və onların başçıları separatizmi, işğalı, ilhaqı qəbul etmir və onunla barışmırlar. Bilsinlər ki, proses daha çox özünə tərəfdar toplayacaq.

Bilirsiniz ki, Ukrayna da separatizmdən ciddi əziyyət çəkir. Ölkənin böyük bir ərazisinə, faktiki olaraq, nəzarət edə bilmir. Yəni eyni dərdli ölkələrik. Postsovet məkanında olan ölkələrin Ermənistandan bu və ya digər səbəblərə görə üz döndərməsi İrəvanın təklənməsi və daha çox tərəfdar itirməsi anlamına gəlir".

***Məhəmmədəli QƏRİBLİ***

# İctimai rəydə MSK-da da dəyişikliklərin zəruriliyi barədə fikirlər dolaşır - əks arqumentlər nə deyir...

**Ölkədə keçirilməsi nəzərdə tutulan növbədənkənar parlament seçkilərinin daha demokratik şəraitdə keçəcəyinə inam çoxdur. Məhz buna görədir ki, bu seçkidə daha çox namizəd deputat olmaq istəyini ortaya qoyub.**

Artıq 11 siyasi partiya da seçkidə iştirak edəcəyini bəyan edib. Ancaq seçkilərdə iştirak etmədiyini bildirən fərdlər və təsisatlar da var. Onlar seçkidə iştirak etməmələrinin başlıca səbəbini MSK-da islahatların aparılmaması ilə izah edirlər. Həmin dairələr belə arqumentlə çıxış edirlər ki, köhnə MSK ilə yeni seçkiləri tam demokratik keçirmək mümkün olmayacaq.

Dolaşan bu versiya ilə bağlı hakim partiyanı təmsil edən deputatların mövqeyi necədir?

Millət vəkili Elman Nəsirov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə ittihamların heç bir halda real əsası yoxdur: "Bəli, ölkədə cənab Prezidentin iradəsi ilə çox ciddi islahatlar həyata keçirilir. Prezident özünün inauqurasiya mərasimində bu islahatların anonsunu vermişdi. Həmin islahatlar parlamenti də əhatə edir. İndidən bəzi dairələr seçkilərin nəticələrinə şübhə salan təbliğata start veriblər. Azərbaycan hakimiyyəti seçkiləri azad, şəffaf və demokratik qaydada keçirmək iqtidarındadır. Sizin dediyiniz şayiələri yayanlar öz güclərinə və sosial bazalarına yaxşı bələd olanlardır. Bilirlər ki, demokratik seçkidə önə çıxmaq şansları yoxdur. Bu səbəbdən də əsası olmayan fikirləri dövriyyəyə buraxırlar. Onlar özlərini yalnız sosial şəbəkələrdə böyük görə bilərlər. Ancaq real həyatda, seçkidə real güc ortaya qoymaq lazımdır. Artıq dünyanın ən nüfuzlu reytinq agentlikləri belə Azərbaycanın irəliləyişini təsdiqləyir".

Millət vəkilinin sözlərinə görə, bu gücü yaradan Azərbaycan xalqıdır və ondan mandat alan Azərbaycan iqtidarıdır: "Həmin siyasətin nəticəsi olaraq biz islahatlara da qorxmadan gedirik. MSK öz səlahiyyətləri daxilində seçkinin tam qanuni keçirilməsini təmin edəcək. Həmin qurumun işinə kölgə salmağa da ehtiyac yoxdur. Boykot yolunu seçənlər bilsinlər ki, xalq onları çoxdan boykot edib. Elə buna görədir ki, üzə çıxa bilmirlər. Əsas məsələ budur ki, MSK-nın işinə kölgə salmaq istəyənlərin seçkidə qalib gəlmək şansları tam sıfıra bərabərdir.

***Elman Nəsirov:** "9 fevral tarixində məhz indiki MSK-nın təşkilatçılığı ilə ölkədə demokratik seçki keçiriləcək"*



Bu da bulanıq suda balı tutmaq sevdasına bənzəyir. 9 fevral tarixində məhz indiki MSK-nın təşkilatçılığı ilə ölkədə demokratik seçki keçiriləcək. Həmin seçkinin də şəriksiz favoriti YAP-dır.

Bu, ətrafında 750 min insanı birləşdirən bir siyasi təşkilatdır. Sizcə, ondan önə keçmək olarmı? YAP-ın yarandığı vaxtdan indiyə kimi seçkilərdə əldə etdiyi zəfər bu dəfə də təkrarlanacaq".

***Məhəmmədəli QƏRİBLİ***

---

# Tramp ABŞ Konqresinin sədrini antikonstitusion sui-istifadədə ittiham etdi - "250 illik tariximizdə belə şey olmayıb"...

**ABŞ Prezidenti Donald Tramp Nümayəndələr Palatasının spikeri Nensi Pelosiyə ünvanladığı məktubda onu və digər demokrat konqresmenləri impiçment proseduru zamanı ölkənin konstitusiyasını pozmaqda ittiham edib: "Bu impiçment misli görünməmiş və konstitusiyaya zidd şəkildə səlahiyyətlərdən sui-istifadə hallarını əks etdirir".**

Ağ Ev rəhbəri Nümayəndələr Palatasının fəaliyyətini "Amerika demokratiyasına açıq müharibə elanı" adlandırıb və bildirib ki, ölkənin 250 illik tarixində belə hadisə olmayıb.

Səlahiyyətindən sui-istifadə etməkdə günahlandırılan ABŞ Prezidenti Donald Trampın impiçment proseduru üzrə səsvermə keçiriləcək. Müvafiq bəyanat Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin saytında dərc edilib. Nümayəndələr Palatası Trampa qarşı irəli sürülən ittiham aktını təsdiqlədiyi təqdirdə, növbəti mərhələ kimi bu məsələyə Senatda baxılacaq. Xatırladaq ki, ABŞ-ın Nümayəndələr Palatasının spikeri olan Nensi Pelosi sentyabrın 25-də Prezident Donald Trampa qarşı impiçment prosedurunun başladığını elan edib. Bunun əsas səbəbi kimi bu ilin iyulun 25-də amerikan liderinin ukraynalı həmkarı Vladimir Zelenski ilə telefon danışığı zamanı təzyiq göstərməsi göstərilir. ABŞ-da həftələrlə davam edən istintaqdan sonra, nəhayət, impiçment səsverməsi günü gəlib yetişdi. Keçiriləcək səsvermədə sürpriz olmasa, Tramp Amerika tarixində impiçment edilən üçüncü prezident olacaq. 435 üzvü olan Konqresin Nümayəndələr Palatasının Demokrat Partiyasından üzvləri Respublikaçılar Partiyası üzvlərindən 36 nəfər çoxdur.

Daha əvvəl sabiq ABŞ prezidentləri Endrü Conson və Bill Klinton impiçment edilmiş, Senatdakı məhkəmə çərçivəsində hər iki prezidentin vəzifədə qalmasına qərar verilmişdi. Sabiq ABŞ prezidenti Riçard Nikson isə impiçment səsverməsi olmadan vəzifəsindən istefa vermişdi. Nümayəndələr Palatasında impiçmentinə səs veriləcək Trampın Senatdakı məhkəməsində senatorlar münsiflər heyəti üzvü kimi iştirak edəcəklər. Məhkəmənin 2020-ci ilin yanvarında baş tutması və 15 gün davam etməsi gözlənir. Nümayəndələr Palatasından fərqli olaraq, Senatda Respublikaçılar Partiyasının üzvləri daha çoxdur. Senatda 45 demokrat, 2 müstəqil və 53 respublikaçı senator var. Prezidentin vəzifə səlahiyyətlərinə son verilməsi üçün 67 senatorun səsi lazımdır.



Trampa yönədilən digər ittiham isə Konqresin fəaliyyətinə mane olmaqdır. Demokratlar buna əsas olaraq impiçmentə çağırılan vəzifəli şəxslərə Trampın icazə verməməsini, tələb olunan sənədləri paylaşmamasını göstərirlər. Trampa qarşı açılan impiçment prosesinin istintaqını aparan Nümayəndələr Palatasının kəşfiyyat komissiyası dekabrın əvvəlində dərc etdiyi son hesabatda ABŞ liderinin vəzifəsindən sui-istifadə etməsinə dair əlində güclü sübutların olduğunu açıqlayıb.

Mövzu ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Əhəd Məmmədli hesab edir ki, Tramp Prezident seçildiyi vaxtdan onun Senat və Konqreslə qarşıdurması başlayıb: "ABŞ daxilindəki siyasi elitalar arasında bir qarşıdurma yaşanır. Həmin ölkə ictimaiyyətində belə şübhələr var ki, o, Rusiyanın dəstəyilə hakimiyyətə gəlib.Yadınızdadırsa, Trampın seçilməsində Rusiyadan olan xakerlərin adı hallanırdı. Elə həmin vaxtdan da belə təəssürat yarandı ki, Tramp Rusiyanın adamıdır. İlk impiçment cəhdləri də məhz bundan sonra başladı. Sonra müxtəlif mövzularda ona impiçment elan etmək cəhdlər edilib. Maraqlıdır ki, Trampa qarşı belə təşəbbüslə Konqresin yalnız demokrat üzləri deyil, həmçinin, respublikaçılar da çıxış edir. Yəni Trampın öz partiyadaşları. ABŞ-da prezident seçkiləri yaxınlaşır. Mən inanmıram ki, belə vəziyyətdə Tramp impiçment olunsun.

Hətta mən növbəti seçkidə də Trampın yenidən seçiləcəyini gözləyirəm. Çünki onun prezidentliyi dönəmində ABŞ iqtisadiyyatında böyük irəliləyiş əldə olunub. ABŞ-da isə bu önəmli faktordur. ABŞ prezident ölkəsi olsa da, orada hər detalı ölkə başçısı həll etmir. Ona görə də baş verən bu çalxalanmaları ABŞ siyasətinin normal mənzərəsi kimi qəbul edə bilərik. Sonda ABŞ-da ümumi sistem nə istəyirsə, o da olacaq. Həmin qərara Prezident də tabe olacaq, Konqres də".

***Məhəmmədəli QƏRİBLİ***

# Hələlik 11 siyasi partiya - 9 fevral seçkilərini çoxpartiyalı saymağa əsaslar varmı...

**Azərbaycanda 2020-ci il fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak edəcək siyasi partiyaların sayı 11-ə çatıb. Mərkəzi Seçki Komissiyasının (MSK) son iclasında növbədənkənar parlament seçkilərində iştirak etmək üçün müraciət edən 2 siyasi partiyanın səlahiyyətli nümayəndələrinin qeydiyyata alınması məsələsinə baxılıb.**



***Fərəc Quliyev:** "Hətta indiki say da seçkilərin çoxpartiyalı əsaslarla..."*

İclasda Vahid Azərbaycan və Ana Vətən partiyalarının səlahiyyətli nümayəndələri qeydə alınıb.

Xatırladaq ki, bundan əvvəl növbədənkənar parlament seçkilərində iştirakla bağlı MSK-ya 9 siyasi partiya müraciət etmişdi. Bunlar Yeni Azərbaycan Partiyası (YAP), Ümid Partiyası və Vətəndaş Həmrəyliyi Partiyası (VHP), Böyük Quruluş Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Azərbaycan Demokrat Partiyası, Böyük Azərbaycan Partiyasıdır.

Qeyd edək ki, Prezident İlham Əliyev dekabrın 5-də parlamentin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası Milli Məclisinin beşinci çağırışı buraxılıb, Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edilib.

Məlum olduğu kimi, Azərbaycanda rəsmi qeydiyyatdan keçmiş 50-dən çox partiya var. Ancaq parlament seçkilərində hələlik onlardan 11-i iştirak edəcəyini rəsmən bəyan edib. Ən maraqlısı budur ki, uzun müddət parlamentdə təmsil olunmuş Sosial Rifah, Vətəndaş Birliyi və sair partiyaların da adları siyahıda yoxdur. Əgər seçkilərdə iştirak edəcək partiyaların sayı bununla yekunlaşsa, 9 fevral seçkilərini çoxpartiyalı saymağa əsaslar varmı?

Rəhbərlik etdiyi partiyanın seçkilərdə iştirakı təsdiqlənən, millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələdə saya çox da fikir vermək lazım deyil: "Bəli, ölkədə qeydiyyatdan keçmiş 55 partiya var. Biz istəsək də onların çoxunun adını sadalaya bilmərik. Çünki yalnız ad və qeydiyyat partiyanın mövcudluğunu tam təmamlamır.

Partiya yaranıbsa, seçkilərdə və bütün siyasi proseslərdə fəallıq göstərməlidir. Seçkilərdə iştirakı təsdiqlənmiş partiyalar çox ciddi siyasi spektri təmsil edirlər. Elə bu say da kifayət edir ki, seçkilərin çoxpartiyalı əsaslarla keçirildiyi iddia olunsun. Ancaq qarşıda zaman da var. Gəlin adları elan olunmayan, lakin cəmiyyətdə nisbətən nüfuza sahib olmayan partiyaları bir az gözləyək. Əminəm ki, sayda artım olacaq. Ancaq boykot yolunu seçənlərlə biz nəsə edə bilmərik. Bu onların öz seçimidir. Hesab edirəm ki, kifayət qədər sanballı siyasilər və partiyalar seçkilərdə iştirak qərarını veriblər. Mən sizdən soruşsam ki, hansı partiyalar seçkidə iştirak etməyəcək, siz özünüz də bu sualın cavabını asanlıqla verə bilməzsiniz. Çünki 55 partiyanın çoxunu heç biz tanımırıq. Seçkilərdə iştirakın partiya üçün böyük əhəmiyyəti var. Ən azından, partiya fəallaşır, öz gücünü ölçə bilir. Mən baxıram bəzi partiyalar siyahılar verirlər və həmin siyahıların onların gücü ilə adekvat olmadığı qənaətinə gəlirsən.

Bir rayonda partiyanın yerli təşkilatı yoxdursa, həmin partiya oradan necə namizəd irəli sürə bilər? Biz artıq 35 nəfərin adını elan edəcəyik. Sayda artım olacaq.

**Mən başa düşə bilmirəm, seçkidən başqa hakimiyyətə gəlməyin hansı üsulu var? Görəsən hakimiyyət iddiasında olan partiyalar heç bu barədə düşünürlər? Gəlin yanvarın 10-nə qədər gözləyək. Ondan sonra sayla bağlı konkret nəsə deyə bilərik. Hətta indiki say da seçkilərin çoxpartiyalı əsaslarla keçirildiyinə əsas sayıla bilər".**

*Məhəmmədəli* **QƏRİBLİ**

# Müsavatın 2000-ci və 2019-cu ildəki deputatlığa namizədlər siyahısını müqayisə edin - ziyalılar ordusu partiyadan niyə qaçdı...

**9 fevral 2020-ci il tarixinə təyin olunan növbədənkənar parlament seçkilərində müxalifət partiyası olan Müsavat Partiyası da iştirak edəcək. Belə ki, sözügedən partiya parlament seçkilərinə 78 dairədən 81 namizədlə gedir.**




***Məhərrəm Zülfüqarlı:** "Azərbaycan ictimaiyyəti tərəfindən tanınmış şəxslərin bir çoxu, xüsusən də ziyalılar partiyadan getdilər"*

Ancaq namizədlərin tərkibinə nəzər saldıqda məlum olur ki, orada tanınmış, cəmiyyətdə hansısa çəkisi olan şəxslərin sayı barmaqla sayılacaq qədər azdır. Müqayisə üçün qeyd edək ki, Müsavat Partiyası 2000-ci ilin noyabrında keçirilmiş parlament seçkilərində proporsional seçki sistemi üzrə 25 nəfərlik deputatlığa namizədlə iştirak etməsinə rəğmən, həmin siyahıda olan şəxslər daha populyar idi və cəmiyyətdə tanınırdılar. Namizədlərin içərisində çoxsaylı tanınmış ziyalı var idi. Ancaq Müsavatın hazırkı siyahısında olan namizədlərin böyük əksəriyyəti tanınmayan şəxslərdir. İctimai rəydə hansısa çəkiyə malik deyillər. Müsavatın 2000-ci ildəki məşhur 25 nəfərlik namizədlər siyahısındakılardan hazırda cəmi 6 nəfər partiyada qalır. Əksəriyyət partiya sıralarını tərk edib. Bir zamanlar partiyada olan ziyalıların çoxu artıq oradan uzaqlaşıb. Bu baxımdan Müsavatın 2000-ci və 2019-cu ildəki deputatlığa namizədlər siyahısını müqayisə etdikdə yaranan hazırkı mənzərəni ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı partiyanın zəif namizədlərlə seçkiyə getməsini bir sıra amillərlə əlaqələndirdi: "Bunun başlıca səbəbi Müsavat Partiyasının son illər əhəmiyyətli dərəcədə zəifləməsidir. Nəzərə almaq lazımdır ki, ötən illər ərzində sözügedən partiya bir neçə dəfə parçalanmaya məruz qalıb. Zamanla bir çox tanınmış şəxs partiyanı tərk etdi. Bu da səbəbsiz deyildi. Çünki partiya gözləntiləri doğrultmadı. Ölkədə keçirilən seçkilərdə heç bir uğur əldə edə bilmədi. Digər tərəfdən, 2014-cü ildə keçirilən qurultayda Arif Hacılı başqan olandan sonra partiya parçalandı. Qubad İbadoğlu və onun tərəfdarları partiyadan ayrıldılar. Digər tanınmış şəxslər də Müsavatdan ayrılaraq başqa bir siyasi təşkilat yaratdılar. Nəticədə Azərbaycan ictimaiyyəti tərəfindən tanınmış şəxslərin bir çoxu, xüsusən də ziyalılar partiyadan getdilər. Onların yerinə yeni simalar gəlsə də, həmin şəxslər ictimaiyyətdə elə də tanınmır. O üzdən, bu cür zəif siyahının ortaya çıxması gözlənilən idi. Hər halda, tanınmayan şəxslərin partiyadan namizədliyinin irəli sürülməsi onların seçkidə uğur qazanmasına kölgə sala bilər. Bu indidən aşkar görünür".

*"...bu cür zəif siyahının ortaya çıxması gözlənilən idi"*

***Vidadi ORDAHALLI***

# Ermənistan "Rusiyanın Qafqazdakı forpostu" təhqiramiz statusunu da itirir...

**Türkiyə-ABŞ münasibətlərinin pisləşməsi, Moskva-Ankara əlaqələrində davam edən isinişmə Ermənistanda getdikcə daha böyük həyəcan yaradır. Məsələ ilə bağlı Ermənistanın "politik.am" portalı yazır ki, qarşıdakı dövr ərzində hadisələr Rusiya və Türkiyəni daha çox yaxınlaşdıracaq və bu hal Ermənistanı daha çox arxa plana atacaq: "Türkiyə ilə yaxınlaşan Rusiya minimum istəklərinə nail olub.**

ABŞ və Türkiyə arasında münasibətlər gərgindir. Hətta Türikyənin NATO-dan çıxması məsələsi də gündəmə gətirilir. ABŞ-ın Türkiyədəki hərbi bazalarının bağlanması da gündəmdədir. Ankara bununla bağlı sərt mövqe sərgiləyib.

Türkiyədəki ABŞ bazaları bağlansa, bunun Ermənistan üçün acınacaqlı nəticələri olacaq. Məsələ burasındadır ki, ABŞ hərbçiləri Türkiyəni tərk etsə, onların olduqları bazalara Türkiyə öz hərbçilərini yerləşdirəcək. Bu isə Rusiya üçün olduqca sevindirici bir xəbər sayılacaq. Ən azı o baxımdan ki, Rusiyanın cənub sərhədlərində artıq NATO-nun nüvə silahları, radarları olmayacaq. Bunlar o vaxtda baş verəcək ki, Türkiyə Rusiya ilə strateji müttəfiqə çevrilir. Deməli, Türkiyə Rusiya üçün hansısa təhdid yaratmır. Məhz bu vəziyyətdə Ermənistan Rusiyanın cənubda forpostu kimi Moskva üçün əhəmiyyətini tam itirir. Bu halda Avrasiya İttifaqında, KTMT-də, MDB-də də Ermənistan Rusiya üçün əhəmiyyətsiz olacaq. Hətta mümkündür ki, Rusiya belə vəziyyətdə Azərbaycanın Ermənistanı sülhə vadar etmək üçün daha ciddi səylərinə də göz yumsun. Buna görədir ki, ABŞ-Türkiyə münasibətlərinin pisləşməsi Ermənistanın zərərinədir".



Xatırladaq ki, bu günlərdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan "İncirlik" və "Kürəcik" bazalarının ABŞ üçün bağlana biləcəyini bəyan edib. Bu açıqlama ABŞ-da ciddi narahatlığa səbəb olub. Pentaqonun məsələ ilə bağlı bəyanatında bildirilir ki, ABŞ Türkiyənin hərbi bazalarını, o cümlədən "İncirlik"aviabazasını yalnız Ankaranın icazəsi ilə istifadə edir: "ABŞ qüvvələri Türkiyənin hərbi bazalarını, o cümlədən "İncirlik" aviabazasını yalnız Ankaranın icazəsi ilə istifadə edirlər. Biz Türkiyədəki qüvvələrimizin statusunu NATO üzrə müttəfiqimizlə əməkdaşlığımıza və onu qorumağa bağlılığımızın simvolu kimi görürük. Türkiyə NATO-nun Əfqanıstanda, Kosovoda, İraqda missiyalarına töhfə verir və ABŞ Milli Təhlükəsizlik Strategiyasının məqsədləri üçün vacib rol oynayır. Biz Türkiyəni S-400 və digər fikir ayrılığı yaranmış sahələrlə əlaqədar daha konstruktiv siyasət yürütməyə çağırırıq və bu münasibətləri qorumağa çalışırıq". Amma məsələ ondadır ki, ABŞ özü Türkiyə siyasətində konstruktivlikdən uzaqlaşır. Rusiyalı siyasi ekspert Aleksandr Bloxin də məsələyə məhz bu prizmadan yanaşır: "Amerikalılar çox kobud şəkildə davranır və Türkiyəni özlərindən daha da uzaqlaşdırırlar. Hətta deyərdim ki, Rusiyaya tərəf sürükləyirlər. Amerikalılar bütün etik qaydaları pozmaqdan çəkinmirlər. Misal üçün, "erməni soyqırımı"nın tanınması Türkiyəyə beldən aşağı zərbədir. ABŞ Konqresi bu məsələnin həssaslığına önəm verməyərək qərar qəbul etdi". Ekspert bildirib ki, Türkiyəni tamamilə itirmək ABŞ üçün fəlakət ola bilər: "Ankaranın aviabazaları qapatması ABŞ üçün Türkiyənin düşmənə çevrilməsinin göstəricisi olacaq. ABŞ manevr imkanları baxımından xeyli ərazi itirəcək. Türkiyə NATO olduğu müddətdə amerikalılarla sövdələşmə edərək xallar qazana bilər".

Elə politoloq Qabil Hüseynli də vurğulayır ki, hazırda Ankara-Vaşinqton, Ankara-NATO münasibətləri arzuolunan istiqamətə getmir: "Xüsusilə ABŞ-la münasibətlər gərginləşməkdə davam edir. ABŞ Senatının qondarma "erməni soyqırımı"nı qəbul etməsi münasibətlərin daha da alovlanmasına gətirib çıxardı. Bu çox yanlış qərar idi, tarixçilərin araşdırması ilə təsdiqini tapmayan bir layihənin elementar tarixi biliyi olmayan senatorlar tərəfindən qəbul olunması iki böyük strateji ortaq arasında soyuq küləklər əsdirməyə başladı. Türkiyənin Rusiyadan S-400-ləri alması da bu məsələdə az qızışdırıcı rol oynamadı. Düzdür, ABŞ "Patriot" hava hücumundan müdafiə sistemləri təklif elədi, lakin artıq gec idi, çünki sövdələşmə baş tutmuşdu, digər tərəfdən istehsalında iştirak etdiyi F-35 tipli ən müasir beşinci nəsil qırıcı təyyarələrin alınmasından da məhrum edildi. Ardınca Türkiyə üçün ağır olan qondarma "soyqırım"ın təsdiqi münasibətləri daha da korladı".

Qabil Hüseynli Türkiyənin hazırda buna cavab tədbirləri hazırladığına diqqət çəkib: "ABŞ həm də Türkiyəni sanksiyalarla, ticarət əlaqələrinin minimuma endirilməsi ilə təhdid edir. Bütün bunlar olacaqsa, Türkiyə də "İncirlik" və "Kürəcik"dəki hərbi hava bazasının bağlanacağını bildirir. Digər tərəfdən Aralıq dənizində Yunanıstan, İsraillə yaşanan qarşıdurmalar, Suriyada yaşanan çətinliklər və bu məsələdə Türkiyənin strateji tərəfdarları tərəfindən müəyyən qədər aldadılması, qonşuları ilə münasibətlərin korlanması xeyli narahatlıqlar yaradır. Belə şəraitdə həmin bazaların bağlanmasına gedilməsi vəziyyəti daha da ağırlaşdıracaq". Məhz belə durumda, aydındır ki, Türkiyə Rusiya ilə yaxınlaşmaqda daha çox maraqlı olacaq. Çünki indiki halda Rusiya özünü Türkiyənin əsl müttəfiqi kimi aparır. Kreml Ankara ilə hərbi, siyasi, iqtisadi və digər müstəvilərdə əməkdaşlığa xüsusi maraq göstərir.

**Türkiyənin də bunlara qarşılıq verməsi artıq regionda Ermənistanı çox ciddi narahat edir. Çünki yuxarıda qeyd olunduğu kimi, bu halda Ermənistan Rusiya üçün çox arxa plana keçəcək. Elə bundan irəli gəlir ki, İrəvan və erməni lobbisi var gücü ilə Türkiyə-Rusiya yaxınlaşmasına qarşı çıxır. Amma görünən budur ki, onların cəhdləri hansısa nəticə vermir və çox əhəmiyyətsizdir.**

***Nahid SALAYEV***

**Ermənistan Gürcüstanın Batumi limanını almaq istəyir. Bu barədə Ermənistanın "Jamanak" qəzeti məlumat yayıb. Qeyd olunub ki, qiyməti 600 milyon dollar olan limanı almaqla rəsmi İrəvan ölkəyə yüklərin maneəsiz gətirilməsinə nail olmağı hədəfləyib.**

# Dost Gürcüstan düşmənimiz Ermənistana böyük dənizlərə çıxış imkanı verəcəkmi...

## *Arzuxan Əlizadə: "Ermənistanın iqtisadi baxımdan bu vəsaiti ödəmək imkanı yoxdur"*



Məlumata görə, Ermənistanın fərqli dairələri limanı almaq üçün vəsait toplayırlar: "Səhmdar cəmiyyət yaradılması ideyası müzakirə edilir. Diasporun biznesmenləri bunun bir hissəsi ola bilərlər, amma bunun üçün kimsə ilk böyük kapital qoymalıdır. Bu isə hələlik yoxdur".

O da məlum olub ki, limanın alınması üçün Nikol Paşinyan hökuməti aktiv fəaliyyətə keçib və bununla bağlı pul mənbəyi axtarılır. Ermənistan parlamentinin Regional məsələlər və Avrasiya inteqrasiya məsələləri komissiyasının sədri Mikayıl Melkumyan informasiyanı dolayısı yolla təsdiq edib. Melkumyan Ermənistanın Poti və ya Batumidə bir terminal alması gərəkliyini söyləyib. O, Qara dənizdə daşımalar üçün iki bərə alınmasıyla bağlı danışıqların aparıldığını bildirib.

Qeyd edək ki, hazırda Batumi limanı Qazaxıstanın "Kazumnayqaz" dövlət şirkətinə məxsusdur. Ermənistana idxal olunan məhsulların 60 faizə qədəri Batumi və Poti limanlarından gətirilir.

Maraqlıdır, Ermənistan hazırkı iqtisadi şəraitdə sözügedən limanın alınması ilə bağlı 600 milyon dollar tapa bilərmi? Digər tərəfdən, Gürcüstanın limanı Ermənistana satmaqda maraqlı olacağı nə dərəcədə realdır?

Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin fikrincə, Ermənistanın belə bir istəklə çıxış etməsi təsadüfi deyil: "Məlum olduğu kimi, Ermənistanın açıq dənizə çıxışı yoxdur. Rusiyadan və Avropadan gələn yüklər əsasən Gürcüstan vasitəsilə ölkəyə çatdırılır. Xüsusən də Avropa ölkələrindən dəniz yolu ilə gətirilən yüklər Poti və Batumi limanlarına yönəldilir. Həmin limanlardan da yüklər Ermənistana iritonnajlı yük avtomobilləri ilə gətirilir. Abxaziya münaqişəsi ilə əlaqədar Gürcüstan-Ermənistan dəmir yolu işləmir. Bu səbəbdən yük daşımaları əsasən sözügedən nəqliyyat vasitələri ilə həyata keçirilir. Ermənistanın Batumi limanını almaq istəyi bu ölkənin maraqlarına cavab verir. Ancaq Ermənistanın iqtisadi baxımdan bu vəsaiti ödəmək imkanı yoxdur. Çünki 600 milyon dollar Ermənistan üçün kifayət qədər böyük məbləğdir. Gələn il Ermənistanın dövlət büdcəsi xərclərlə birlikdə 3,8 milyard dollar təşkil edəcək. O üzdən, Ermənistanın limanı almaq imkanı yoxdur. Ancaq çox güman ki, Paşinyan bununla bağlı növbəti dilənçilik kampaniyasına start verəcək. Erməni lobbisindən tutmuş, müxtəlif dairələrdən pul dilənməyə başlayacaq. Bundan həm də müəyyən siyasi dividendlər əldə etməyə çalışacaq.

*"Çox güman ki, Paşinyan bununla bağlı erməni lobbisindən tutmuş, müxtəlif dairələrdən pul dilənməyə başlayacaq"*

Gürcüstanın hazırkı hakimiyyətinin limanı Ermənistana satmaqda nə dərəcədə maraqlı olduğunu indidən demək çətindir. Ancaq nəzərə almaq lazımdır ki, mövcud hakimiyyətin Ermənistanla münasibətləri Saakaşvili hakimiyyəti ilə müqayisədə daha yaxındır. Bu baxımdan, rəsmi Tiflis də bunda maraqlı ola bilər".

***Vidadi ORDAHALLI***

**Dekabrın 4-də ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın Xarici işlər nazirləri Elmar Məmmədyarovla Zöhrab Mnatsakanyanın Bratislavada baş tutan görüşündən sonra ictimaiyyətdə Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı bəzi ehtimallar yaranıb.**

# Ermənilər Qarabağa dair "Lavrov planı"ndan qaçır



Belə düşüncə formalaşıb ki, Rusiya Qarabağ münaqişəsi ilə bağlı "Kazan formulu"nun "rus versiyası" hesab olunan "Lavrov planı"nı işə salacaq. Qeyd edək ki, bugünlərdə Elmar Məmmədyarov da yerli KİV-ə verdiyi açıqlamada gündəlikdə "Lavrov planı"nın müzakirə mövzusu olduğunu bildirib. Nazir əlavə edib ki, erməni həmkarı ilə danışıqlar zamanı "konkret və real məqamlar" müzakirə olunur.

Məmmədyarov vurğulayıb ki, Ermənistan tərəfi ilə danışıqlar zamanı müxtəlif sənədlər meydana çıxıb, sonuncusu "Lavrovun planı"dır: "Lavrovun planı" təqribən iki il öncə Moskvada aparılan sıx müzakirələrin nəticəsidir. Lakin yenə də "Madrid prinsiplərinə" əsaslanır. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin 9 mart 2019-cu il tarixli bəyanatı var. Burada həmsədrlərin danışıqlarda irəliləyiş olması üçün fikirləri öz əksini tapıb. Mahiyyəti çox sadədir - mərhələli şəkildə. Birinci mərhələdə qoşunların çıxarılması, Azərbaycan əhalisinin qayıdışı, təhlükəsizliyin təmin olunması, kommunikasiyaların təşkili. Bu səbəbdən bizim Ermənistan tərəfinə təklifimizi "tərəqqi perspektivli sülh" kimi xarakterizə etmək olar". Ancaq maraqlıdır ki, Ermənistan tərəfi hər hansı bir sənəd ətrafında müzakirənin aparılmadığını bir neçə dəfə rəsmi səviyyədə bəyan edib. Müzakirənin predmeti ilə bağlı tərəflərin səsləndirdiyi ziddiyyətli mövqeni nə ilə izah etmək olar?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə verdiyi açıqlamada bildirib ki, danışıqlarda hansı istiqamətdə müzakirənin aparıldığı və konkret hansı nəticənin əldə olunduğu görüşdən sonrakı yekun bəynatlarda öz əksini tapır: "Bizim Xarici işlər naziri də danışıqlardan əvvəl bildirmişdi ki, mövzular ətrafında predmetli müzakirələr olacaq. Belə razılşama olub ki, Məmmədyarov məlum açıqlamanı verib. Təbiidir ki, orda söhbət Qarabağdan gedib. Yoxsa tərəflər 3 saat bir-birinin üzünə baxmayıblar ki... Ancaq ortada konkret bir sənədin müzakirə olunduğu qeyd edilmir. Məmmədyarovla Mnatsakanyanın görüşü Bratislavada, Xarici işlər nazirlərinin illik görüşü çərçivəsində baş tutub. Bu görüşün nəticəsində xüsusi bəyanat yayılıb. Bəyanatda bir dənə də olsun, ciddi məsələ qeyd olunmayıb. Sadəcə atəşkəs rejiminin güclənməsi, ictimaiyyət tərəfindən qarşılıqlı etimad və etibarı gücləndirən tədbirlər nəzərdə tutulub. Bəyanatda torpaqların azad olunması ilə bağlı bir kəlmə də deyilmir. Görünür, erməni tərəfi heç bir plan ətrafında müzakirəni yaxına buraxmaq istəmir. Bu səbəbdən də, Bratislava görüşünü də nəticəsiz saymaq olar. Ciddi şəkildə təhlil etdikdə görünür ki, ortada heç nə yoxdur. Bratislava görüşü barədə Xarici işlər nazirlərinin adlarından yayılan bəyanata diqqət etmək kifayətdir ki, orda konkret hansısa sənədin müzakirə olunmadığı qənaətinə gələsən". Politoloq deyir ki, münaqişənin sülh yolu ilə həllində irəliləyişlər gözləmir:"Çünki həmsədr dövlətlərdən birisi - Rusiya konkret olaraq bu istiqamətdə destruktiv mövqeyini nümayiş etdirir.

Həmin ölkənin xarici işlər naziri Lavrovun İrəvana səfəri və orada "Dağlıq Qarabağ xalqı danışıqlara qatılmalıdır" kimi ifadələri Bratislava görüşünün özünə də kölgə saldı. Nə qədər ki, Rusiya bu proseslərdə inhisarçı mövqeyini qoruyub saxlayır, münaqişənin həllində irəliləyişin olması çox çətin görünür. Erməniləri ərazilərimizdən çıxmağa vadar edən lokal xarakterli hərbi əməliyyatlar keçirmədən ermənilər danışıqlarda yenmək mümkün olmayacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan və Ukrayna arasında hərbi əməkdaşlığın mühüm mərhələsi başladı...

**Azərbaycanın artan iqtisadi imkanları, dünya miqyasında getdikcə daha böyük nüfuz sahibinə çevrilməsi onunla əməkdaşlıqda maraqlı olan dövlətlərin də say artımına təsirsiz ötüşmür. Elə Ukrayna prezidenti Vladimir Zelenskinin ölkəmizə səfərinə də bu fonda yanaşmaq mümkündür.**

Səfərin nəticələrindən və əldə edilən razılıqlardan belə görünür ki, Ukrayna Azərbaycanla əməkdaşlığını sıxlaşdırmağı düşünür. Bu, ilk növbədə iqtisadi və energetika sahəsini əhatə edir. Məsələnin bu tərəfinə toxunan Prezident İlham Əliyev qeyd edir ki, iki ölkə arasında ticarət dövriyyəsinin artırılması, birgə sərmayə qoyuluşu layihələri böyük maraq doğurur: "Energetika sahəsində əməkdaşlıq müzakirə edildi. SOCAR artıq uzun illərdir ki, Ukraynada fəaliyyət göstərir, altmışdan çox yanacaqdoldurma məntəqəsi, dörd neft bazası vardır. Biz bir daha bu məsələni müzakirə edərkən razılığa gəldik ki, SOCAR Ukraynadakı fəaliyyətini genişləndirəcək və konkret addımlar atılacaqdır... Həm Ukraynada, həm Azərbaycanda nəqliyyat sahəsində müasir logistika və infrastruktur mövcuddur. Xəzər dənizi, Qara dəniz nəqliyyat dəhlizləri bizim ölkəmizin iştirakı ilə fəaliyyət göstərir. Artıq "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçməklə geniş beynəlxalq əməkdaşlığa da təkan verir, əməkdaşlıq üçün yeni imkanlar açır. Ona görə bu sahədə birgə səylərlə reallaşdırılan Şərq-Qərb nəqliyyat dəhlizi, Bakı-Tiflis-Qars dəmir yolu, "Vikinq" layihəsi - bütün bu layihələr bizim ölkələrimizi və geniş mənada regional əməkdaşlığı daha da möhkəmləndirəcək, ölkələrimizə fayda verəcəkdir".

Ukrayna tərəfi də iqtisadiyyat, energetika sahəsində Azərbaycanla əməkdaşlıqda indi xüsusi maraqlı tərəf kimi çıxış etdiyini vurğulayır. Zelenski bu xüsusda bildirir: "Cənub Qaz Dəhlizi" layihəsi bizim ölkəmiz tərəfindən xüsusi izlənilir. Xüsusilə də hesab edirəm ki, bizim - həm Ukraynanın, həm Azərbaycanın misilsiz nəqliyyat potensialı var. Biz belə qərara gəldik ki, nəqliyyat və aviasiya daşımaları sahələrində də təmaslarımızı, əməkdaşlığımızı gücləndirək. Aerokosmik sahədə əməkdaşlığa xüsusi diqqət yetirilmişdir. Müxtəlif sahələrdə, təyyarə istehsalı sahəsində, o cümlədən humanitar sahədə də məsələləri müzakirə etdik".

Ukrayna Analitik Mərkəzinin direktoru Aleksandr Oxrimenko bildirir ki, qarşılıqlı əməkdaşlığın dərinləşməsinin hər iki ölkə üçün böyük əhəmiyyəti var: "Rəsmi Kiyev Ukraynanın enerji təhlükəsizliyini təmin etmək məqsədilə Bakı ilə enerji sahəsindəki əməkdaşlığın genişləndirilməsində maraqlıdır". Onun sözlərinə görə, Ukrayna ilə Azərbaycan arasındakı ikitərəfli münasibətlərin əsas komponenti energetika sektorudur: "Azərbaycanda neft, Ukraynada isə neft emalı zavodları var. Ukrayna və Azərbaycan iqtisadiyyatları üçün neftin Azərbaycandan Ukraynaya çatdırılması, burada neft məhsullarının emal edilməsi və bir hissəsinin Ukraynada satılması faydalı olardı". Ekspert hesab edir ki, Ukrayna ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın genişlənməsi Ukraynaya enerji bazarındakı maraqlarını qorumağa imkan verəcək: "Bundan əlavə, Ukraynanın Avropa İttifaqı ilə assosiasiya sazişi var və Azərbaycan neftindən istehsal olunan benzini rüsumsuz ora tədarük edə bilərik". O həmçinin qeyd edib ki, Ukrayna Azərbaycan neftini inşası tamamlanmış Odessa-Brodı boru kəməri ilə də xarici bazarlara çıxara bilər və bu, hər iki ölkə üçün faydalı olar. Ukraynalı ekspert vurğulayıb ki, Ukraynadan Azərbaycana "An" təyyarələrinin tədarükü üzrə maraqlı layihə də var: "Özü də bu təyyarələr azərbaycanlı pilotlara yaxşı tanışdır və digər modellərə nisbətən onlardan istifadə etmək daha asandır". Əməkdaşlığın siyasi komponenti barədə danışan A.Oxrimenko hər iki tərəfin birbirini dəstəklədiyini və birbirinin ərazi bütövlüyünü tanıdıqlarını, bunun da Azərbaycan və Ukraynanı yaxınlaşdırdığını vurğulayıb.

Digər ekspertlər də bildirir ki, Ukrayanın Azərbaycanla indiki şəraitdə daha çox yaxınlaşmaq istəyi təbiidir. Azərbaycanın bu ölkə ilə iqtisadi əməkdaşlığını dərinləşdirməsi Kiyevin bundan sonra daha sıx şəkildə Bakı ilə işbirliyinə rəvac verə bilər. Belə vəziyyətdə Ukraynanın Azərbaycana hərtərəfli dəstəyinin artması da mümkündür. Xüsusən də Qarabağ məsələsində. Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyi kimi, Ukrayna da birmənalı olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Kiyev mütəmadi olaraq Ermənistanın Qarabağ siyasətini tənqid edir. Bundan əlavə, rəsmən açıqlanmasa da, tərəflər arasında hərbi sahədə əməkdaşlığın daha da dərinləşməsini gözləmək olar. Xatırladaq ki, Azərbaycan Ukraynadan indiyə qədər böyük həcmdə hərbi texnika alıb. Məsələ ilə bağlı elə bu günlərdə Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski də maraqlı açıqlamalar verib: "Ukrayna və Azərbaycan arasında hərbi texniki sahədə əməkdaşlıq sıx və müntəzəm şəkildə müzakirə olunur. Ukraynada hərbi texniki sahədə istehsal olunan Azərbaycan məhsullarına tələbat var". O xatırladıb ki, Ukrayna məhsullarına Azərbaycan bazarında da tələbat var: "Ukrayna istehsalı olan hərbi məhsullar yalnız poliqonlarda deyil, həm də real döyüş şəraitində test edilib".

Qeyd edək ki, Azərbaycan və Ukrayna hələ ötən əsrin 90-cı illərindən hərbi və hərbi-texniki sahələrdə çox sıx əməkdaşlıq ediblər. 2013-cü ilədək rəsmi Kiyev Azərbaycanın əsas hərbi tərəfdaşlarının ilk üçlüyündə qərarlaşıb. 20 illik zaman kəsiyində Azərbaycan Silahlı Qüvvələrinin və güc strukturlarının ehtiyaclarının qarşılanması məqsədilə Ukrayna ilə dəyəri bir neçə milyard dollardan çox olan müqavilələr bağlanıb, Azərbaycanın hərbi sifarişlərində Ukrayna 1992-2012-ci illərdə ilk yerdə dayanıb. Həmin dövrdə Azərbaycan Ukraynadan döyüş tankları, hərbi təyyarələr, helikopterlər, özüyeriyən artilleriya sistemləri, hava hücumundan müdafiə sistemləri və digər silah-sursat alıb. Digər tərəfdən nəzərə alaq ki, Ukrayna hələ də bir çox sahələrdə bu gün də dünyada liderliyini qoruyub saxlayıb. Onlardan biri də mühərriklərin istehsalıdır. Bura həm gəmi, həm aviasiya, həm də hərbi texnika mühərrikləri daxildir. Bu sahədə Ukrayna keçmiş sovet, Rusiya və Ukrayna təyyarələri, helikopterlərinin istifadə edildiyi coğrafiyada şəriksiz liderdir. Hesab edilir ki, mühərrik təminatı məsələsində Ukrayna Azərbaycanla əməkdaşlıq edə bilər və bu sahədə böyük potensial var. Elə Ukrayna prezidentinin də bu məsələyə toxunması qeyd edilən istiqamətdə sıx əməkdaşlığın qurulacağını deməyə əsas verir. Ukraynanın təyyarə və helikopterlərin modernləşdirilməsində imkanları genişdir, həm də bu ölkənin bu texnikaları sertifikatlaşdırmaq icazələri var. Azərbaycanın istifadəsində olan döyüş təyyarələri və helikopterlərin müəyyən qisminin modernləşdirilməsində də Kiyev iştirak edə bilər. Ukrayna müəssisələri tank, ZTR və piyada döyüş maşınlarının modernləşdirilməsində köklü təcrübəyə malikdir. Hazırda Ukrayna hərbi müəssisələri Azərbaycanla əlaqələri genişləndirmək istiqamətində ciddi səylər göstərir:"Həm "Ukroboronprom" Dövlət Konserni, həm də özəl sektor sənaye şirkətləri Azərbaycan bazarında yer almaq üçün imkanları araşdırır. Bu məsələyə Ermənistanın Ukraynadakı diasporu ciddi etiraz etsə də, artıq Ukraynada onları heç kim eşitmir.



***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Türkiyə-Rusiya yaxınlaşması Qarabağ məsələsində mühüm yeniliklərə yol açır - Ermənistan narahatdır...

**Dünya geosiyasətində yaşanan dəyişikliklərin təsir göstərəcəyi ən mühüm məkanlardan biri qismində Cənubi Qafqaz qəbul edilməkdədir. Belə görünür ki, yaxın tezlikdə bu regionda mühüm yeniliklər olacaq və bu yeniliklərin təsir göstərəcəyi əsas istiqamətlərdən biri Cənubi Qafqazdakı mövcud münaqişələr olacaq. Təbii ki, onların sırasında Dağlıq Qarabağ münaqişəsi də yer alır.**

Regionun aparıcı ölkəsi olaraq Azərbaycan prosesi yaxından izləyir və hadisələrin gedişini öz maraqları çərçivəsinə uyğunlaşdırır. Baş verənlərdən daha çox əndişələnən tərəf qismində isə işğalçı Ermənistan çıxış edir. Erməni mediasına nəzər salanda belə bəlli olur ki, Qafqazı gözləyən geosiyasi yeniliklər, xüsusən də qardaş Türkiyənin regionda möhkəmlənməsi düşmən tərəfdə böyük ajiotaja yol açıb. Artıq faktdır ki, Türkiyə ilə Rusiya arasındakı əməkdaşlıq İrəvanda panika halını alıb. Hətta erməni mediasında, sosial şəbəkələrdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın rusiyalı həmkarı Vladimir Putinlə birgə Ermənistanın "arzulamadığı" bir gizli planının olmasından yazılır. Ermənistanın "Aravot" qəzeti ölkənin hakim dairələrində olan etibarlı mənbələrinə istinadən yazır ki, Rusiya-Türkiyə münasibətləri pik nöqtəyə yaxınlaşır: "Artıq buna nə ABŞ, nə də digər Qərb ölkələri mane ola bilir. S-400 məsələsində Ərdoğan öz prinsipiallığını hamıya göstərməyi bacardı. Amma S-400 aysberqin görünən hissəsidir. Əslində ən böyük razılaşmalar, hələ ki, su altında qalır. Bura yaxın vaxtlarda Ankaranın Rusiya istehsalı olan müasir Su-35 və Su-57 təyyarələrini əldə etməsini, Kremlin köməyilə türk kosmik proqramının başlamasını və Qarabağ məsələsinin Azərbaycanın xeyrinə həllini də əlavə etmək olar". "Aravot"a müsahibə verən erməni ekspert Ayk Qabrielyan bununla bağlı danışarkən qeyd edib ki, Türkiyə, ABŞ tərəfindən böyük basqıya baxmayaraq, Rusiyanın maraqları çərçivəsində hərəkətini davam etdirir: "Ərdoğan və Putinin çox böyük hərbi-strateji planları var və biz yaxın vaxtlarda bunun şahidi olacağıq. Əlbəttə, bu, Türkiyə və Rusiyaya əlavə sanksiyalarla nəticələnəcək. Amma belə görünür ki, bu, Ankara və Moskvanı çox da narahat etmir. Ermənistana isə baş verənlərin mütləq təsiri olacaq. Ən azından, Qarabağ məsələsində biz yeni təzyiqlərə və savaşa hazır olmalıyıq. Ankaranın istəyi ilə Moskva bunlara, yəqin ki, yaşıl işıq yandıracaq".

Ermənistanın "Fakt" qəzeti isə yaxın tezlikdə ölkəni yeni aprel savaşının gözlədiyini yazır. Qəzet artıq Rusiyanın bu təcrübədən istifadə etdiyini bildirir, ölkə parlamentində fəaliyyət göstərən və aprel döyüşlərində Ermənistan ordusunun məğlubiyyətini araşdıran dövlət komissiyasının işi ilə bağlı bu xüsusda maraqlı məqamların ortaya çıxdığını qeyd edir. Belə ki, qəzetin yaydığı məlumatda baş nazir Nikol Paşinyanın komissiyanın növbəti iclaslarından birində aprel savaşı ilə bağlı dinləmələrdə iştirakının gözlənildiyi vurğulanır. Amma nəşrin dövlət strukturlarında çalışan etibarlı mənbələrə istinadən verdiyi məlumata əsasən, Paşinyan artıq bu məsələ ilə bağlı bir dəfə fikir bildirib:"Aprel savaşı Rusiyanın əli ilə baş tutub. Moskva buna Azərbaycanı KTMT-ya gətirmək üçün əl atıb. Aprel savaşının günahkarı Kremldir". "Fakt" qəzeti indi Türkiyə və Azərbaycanla xüsusi yaxınlıq etməyə çalışan Rusiyanın eyni addımı təkrar edə biləcəyinin Ermənistanın hakim dairələrində böyük narahatlıq yaratdığını vurğulayır.

Ermənistanın "İrates" nəşrinin də məsələyə yanaşması maraqlıdır. Qəzet yazır ki, Moskva Qarabağ məsələsində Paşinyandan istədiklərini almaq üçün ona müəyyən şərtlər qoyub və komandasında Qərbmeylli, Rusiyanın istəklərinə qarşı çıxanları hakimiyyətdən uzaqlaşdırmağı tapşırıb. Bildirilir ki, bu durumda Paşinyan kadrları haradan tapmaq olar deyə həll olunmayan bir dilemma ilə qarşılaşıb: "Bu halda parlament qüvvələrinə fürsət verilməyəcək. O, 1996-cı il seçkisi ilə bağlı Levon Ter-Petrosyanı düşünülmüş şəkildə "asfalta sərdi". Buna görə də boş vəzifələr, xüsusən də MTX rəhbəri və polis rəisi vəzifələri ilə bağlı Paşinyanın daim Rusiyanın "gözlərinə" baxmalı olduğu bildirilir. Üstəlik, Rusiya çoxdan Milli Təhlükəsizlik Şurası katibini əvəz etmək şərti qoyub. MTX-də ana Rusiyanın qəzəbini oyatmayacaq bir adam olmalıdır. Eyni zamanda, Rusiya baş nazirin birinci müavininin onun ürəyincə olan şəxslərdən birinin olmasını istəyir". Qeyd olunur ki, Paşinyan dalana dirənmiş vəziyyətdədir. Bildirilir ki, Moskva Ermənistanda istədiyi komandanı formalaşdırdıqdan sonra Qafqazın geosiyasi mənzərəsinin yenidən qurulmasında Ermənistandan fəal istifadə edəcək: "Bu zaman Qarabağ məsələsində Azərbaycanın istəklərinin nəzərə alınması ön plana çıxacaq. Çünki Türkiyə və Azərbaycan faktorlarının Rusiya üzərində təsiri artır. Moskva öz niyyətlərinə çatmaq üçün bu iki ölkə ilə sıx işbirliyi qurur. Təbii ki, bu durumda Azərbaycan Qarabağ istəklərini ön plana çıxarır".

Yaranmış vəziyyətdə Rusiyanın özündə də Qarabağ məsələsi ilə bağlı maraqlı fikirlər səslənir. Məsələn, "Rusiya zabitləri" Ekspert Şurasının üzvü Aleksandr Perenciyev bildirir ki, Azərbaycanın əlində Ermənistana qarşı tutarlı əsas var və Dağlıq Qarabağ münaqişəsinin həllini məhz ondan başlamaq lazımdır: birinci növbədə mübahisə predmeti olmayan Azərbaycanın yeddi rayonunun işğaldan azad edilməsi məsələsini qaldırmaq lazımdır. Onun sözlərinə görə, hazırda Dağlıq Qarabağla bağlı "mübahisəli ərazi" terminindən istifadə olunursa, o zaman Ermənistan tərəfinin ətrafdakı 7 rayonu əlində tutması işğaldır və bu faktı əsas kimi istifadə etmək lazımdır: "Düzgün yanaşmanı tapmaq vacibdir. Ermənistanın özünün də qəbul etdiyi faktlar irəli sürülməlidir. Söhbət Ermənistanın işğal etdiyi və heç vaxt Dağlıq Qarabağın "mübahisəli ərazilərinə" daxil olmamış Azərbaycanın yeddi rayonundan gedir".

Perenciyev vurğulayıb ki, bu problem ətrafında müzakirələr aparılarkən dərhal Ermənistanın Azərbaycanın bu yeddi rayonunun işğal faktı barədə danışır və onun həmsöhbətləri düşünürlər ki, Ermənistan bu torpaqları işğal edibsə, onda çox güman ki, Dağlıq Qarabağ da təcavüzə məruz qalıb: "Bu yeddi rayonun Azərbaycana məxsus olması haqda Ermənistan tərəfinin imzaladığı həqiqi sənədlər var və onlar şəkk-şübhəsiz bu torpaqları azad etməlidir. Bundan başlamaq lazımdır. Bütün dünyaya ermənilərin işğalçı siyasətini ifşa etmək və sonra Qarabağın azad edilməsini tələb etmək lazımdır". Perenciyev əmindir ki, bu istiqamətdə fəaliyyət göstərilsə, 2020-ci ilin ikinci yarısında Dağlıq Qarabağın da işğaldan azad olunmasını gözləmək olar". Ermənistanda hesab edilir ki, Rusiyada belə təkliflərin indi gündəmə gəlməsi təsadüfi deyil və Kremlin yeni geosiyasi maraqlarına hesablanmış yanaşmadır. Bildirilir ki, Paşinyan indiki vəziyyətdə Rusiyanın geosiyasi maraqlarından irəli gələn tələbləri yerinə yetirmək məcburiyyətindədir. Əks təqdirdə onu hakimiyyətdən devrilmə təhlükəsi gözləyir. Bunun üçün "Qarabağ klanı" var və bu klanın təhdidləri də artır. "1in.am" saytı yazır ki, həmin klanın əsas təmsilçilərindən biri olan Vitali Balasanyan artıq bütün sərhədləri keçərək Paşinyana qarşı sərt mövqe sərgiləyir: Sayt Balasanyanın "vəzifə"sindən Ermənistan hakimiyyətinə qarşı daha sərt mövqe tutmaq üçün istefa verdiyini yazır: "Balasanyan "vəzifəsində" olarkən daha nəzarət olunan və müəyyən edilə bilən idi. Xankəndiyə qarşı siyasi və administrativ resurslarla hər şeydən öncə onun təhlükə səviyyəsini məhdudlaşdırmaq mümkün olurdu. İndi o, idarəolunmaz və qeyri-müəyyəndir. Balasanyan Serj Sarkisyanın "ağır artilleriyası"dır.

"Qarabağ klanı"na yaxınlaşan fiqurlardan biri də Artur Vanetsyandır. Vanetsyan Paşinyan komandasında olanda çalışırdı ki, "kölgə komanda" və özü üçün sərfəli olan siyasi gündəm yaratsın. Bəzi fikirlər var ki, o, keçmiş rejim nümayəndələri, xüsusilə də Sarkisyanın kürəkəni Mikayıl Minasyanla əlaqə qurmağa cəhd edib. Bütün ehtimallara rəğmən, bir müddət əvvəl general olan çekist Paşinyan rejimini devirməyə və hakimiyyəti öz əlində toplamağa cəhd edib. Vanetsyanın, göründüyü kimi, ciddi siyasi ambisiyaları var və o, hansısa formada heç nə qarşısında dayanmayacaq. Balasanyan və Vanetsyan hansısa satılmış jurnalist və ya təqaüdçülərdən ibarət Vazgen Manukyanın "Vernatun"u deyil. Biz ciddi hərbi yol keçən və ciddi çekist təcrübəsinə, böyük resurslara malik komandirlərlə üz-üzəyik. Onlar müəyyən insan qruplarını və gündəmi konsolidasiya etmək gücündədirlər. İndi bu komanda Rusiyadan da dəstək almağa çalışır. Buna nail olsalar, Paşinyan üçün olduqca gərgin bir dövr başlanacaq. Paşinyan ona qarşı çıxanları neytrallaşdıra bilmək üçün əlavə dəstəyə ehtiyac duyur. İndiki halda bu dəstəyi ona yalnız Rusiya və buradakı erməni diasporu verə bilər. Amma təbii ki, belə vəziyyətdə Rusiyanın müəyyən şərtləri olacaq. Onlar çoxdur və artıq bəllidir ki, bunun içində Qarabağ məsələsi də var. Moskva Dağlıq Qarabağ ətrafında bir neçə rayonun Azərbaycana qayıtmasını istəyir. Bu halda Rusiya Azərbaycanı görmək istədiyi təşkilatlarda görə biləcəyini düşünür. Bakı da proseslərin bu səpkidə inkiaşfını yaxından izləyir və hadisələri öz marağına uyğunlaşdırmağa çalışır".

Bütün bu qeyd edilənlər həqiqətən də yaxın tezlikdə Qarabağ məsələsində müəyyən yeniliklərin olmasını istisna etmir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# UNESCO-nun məşhur komitə vitse-sədrliyi Azərbaycanda - ermənilərin saxta "irs aksiyalarını" dayandıra bilərik

*Ənvər Çingizoğlu: "Azərbaycan həm UNESCO-dakı nüfuzundan, həm də vitse-prezidentliyindən istifadə edərək erməni saxtakarlığına qarşı kəskin mübarizəsini davam etdirməlidir"*

**Azərbaycan və UNESCO arasında uzun illərdir davam edən sıx əməkdaşlıq prosesi nəticəsində ölkəmiz mütəmadi olaraq bu qurumda müxtəlif vəzifələrə seçilir. Əlbəttə, UNESCO-ya üzv dövlətlər arasında Azərbaycan daha çox öz fəallığı, aktivliyi ilə diqqəti cəlb edir.**

UNESCO və Azərbaycan əməkdaşlığı özünün bəhrəsini verir və bu əməkdaşlıq sayəsində Azərbaycana aid bir sıra maddi və qeyri-maddi irs nümunələri bu quruma daxil edilib.

Məlumdur ki, bu ilin yayında UNESCO-nun Ümumdünya İrs Komissiyasının 43-cü sessiyası Bakının evsahibliyi ilə keçirildi. UNESKO tərəfindən Azərbaycan yenidən fərqləndirilib.

Belə ki, Kolumbiyanın paytaxtı Boqotada UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 14-cü sessiyasında Azərbaycan həmin komitənin vitse-prezidenti seçilib.

Sessiyada 5 qeyri-maddi mədəni irs nümunəsi Təcili Qorunmaya Ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına, 35 qeyri-maddi mədəni irs nümunəsi isə Bəşəriyyətin Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. İlk dəfə olaraq, bir qeyri-maddi mədəni irs nümunəsi siyahıdan çıxarılıb. UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 15-ci sessiyasının 2020-ci ilin 30 noyabr-5 dekabr tarixlərində Yamaykanın Mədəniyyət, gender, əyləncə və idman naziri Oliviya Qranqenin sədrliyi ilə bu ölkənin paytaxtı Kinqston şəhərində keçirilməsi ilə bağlı qərar qəbul edilib.

Sessiyada qəbul olunmuş qərara əsasən, Azərbaycan komitənin vitse-prezidenti seçilib. Ölkəmizlə yanaşı, Çin, Niderland, Qazaxıstan, Küveyt və Cibuti də komitənin vitse-prezidentləri seçiliblər.

Bilirik ki, son dövrlər ermənilər tərəfindən UNESCO-da Azərbaycana qarşı təxribatların sayı artıb. Ermənilər Azərbaycana aid irs nümunələrini öz adlarına çıxmağa, hətta onların bəzilərini qeydiyyatdan keçirməyə nail ola bilirlər. Bir müddət əvvəl Azərbaycanın milli rəqsi "Köçəri"ni "erməni xalq rəqsi" kimi qeydiyyatdan keçirməyə nail olan ermənilər, habelə "Avesta"dan oğurladıqları qədim Zərdüşt dövrü əlifbasını da "erməni yazı mədəniyyəti" nümunəsi kimi UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edə biliblər, özü də bir neçə gün əvvəl.

Azərbaycanın Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 14-cü sessiyasında komitənin vitse-prezidenti seçilməsi bizə nə verəcək? Ümumiyyətlə, Azərbaycan bu komitəyə vitse-prezidentlik etdiyi dövrdə ermənilərin UNESCO-da saxtakarlıqla qeydiyyatdan keçirdikləri nümunələrin ləğvinə nail ola bilərmi?

Tanınmış etnoqraf Ənvər Çingizoğlu hesab edir ki, Azərbaycan UNESCO-un ən aktiv və etibarlı tərəfdaşı kimi erməni saxtakarlığı ilə bağlı bir sıra məsələlərin həllinə nail ola bilər. O hesab edir ki, ermənilər indiyə qədər UNESCO-ya aşıq sənəti, xalçaçılıq, balaban, kamança, rəqslərlə bağlı fayllar təqdim etsələr də, onlar Azərbaycanın səyi nəticəsində buna müvəffəq ola bilməyiblər. Bu gün Azərbaycanın bu quruma digər üzv dövlətlər tərəfindən dəstəkləndiyini önə çəkən Ə.Çingizoğlunun sözlərinə görə, Azərbaycan komitəyə vitse-prezidentliyi dövründə ermənilərin UNESCO-ya saxtakarlıq və kələklə qəbul etdirdiyi nümunələrin ləğvinə nail olmalıdır. "Azərbaycanın UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin vitse-prezidenti seçilməsi müsbət hadisədir. Bilirsiniz ki, indiyə qədər ölkəmiz bu mötəbər qurumda dəfələrlə müxtəlif vəzifələrə seçilib və həmişə də bu qurumun etimadını doğruldub. Azərbaycan və UNESCO arasındakı əməkdaşlıq nəticəsində Azərbaycana məxsus bir sıra maddi və qeyri-maddi mədəni irs nümunələri bu quruma daxil edilib. Heç şübhəsiz ki, ölkəmizlə bu qurum arasında münasibətlərin belə yüksək səviyyədə qurulmasında, yüksək nailiyyətlər əldə etməyimizdə Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın həyata keçirdiyi uğurlu fəaliyyətin böyük rolu var. Bu gün Azərbaycanın UNESCO-da böyük nüfuzu var və ölkəmiz bu nüfuzu öz fəaliyyəti, bu quruma verdiyi töhfələrlə, etibarlı tərəfdaş olmaqla qazanıb. Azərbaycan həm UNESCO-dakı nüfuzundan, həm də vitse-prezidentliyindən istifadə edərək erməni saxtakarlığına qarşı kəskin mübarizəsini davam etdirməlidir. Hesab edirəm ki, ölkəmiz UNESCO-nun Qeyri-maddi mədəni irs komitəsinə vitse-prezidentliyi dövründə erməni saxtakarlığının ifşası istiqamətində daha böyük üstünlük əldə edəcək.




**Təəssüf ki, öz lobbilərinin təsirilə ermənilər bəzi maddi mədəniyyət nümunələrini öz adlarına bu qurumda qeydiyyatdan keçirməyə nail ola biliblər. Azərbaycan isə bu quruma üzv olan digər dost ölkələrin də dəstəyilə erməni saxtakarlığını ifşa etməyə və ermənilərlə heç bir əlaqəsi olmayan, lakin "erməni irsi" kimi bu quruma daxil edilən nümunələrin onların adından çıxarılmasına nail olmağa çalışmalıdır" - deyə Ə.Çingizoğlu dedi.**

***İradə SARIYEVA***

# Ukrayna Prezidenti Azərbaycanın yol çəkənlərini öz ölkəsində görmək istədi... Niyə...

**"Biz çoxlu infrastruktur layihələrini həyata keçirmək niyyətindəyik, 16 min kilometr yol inşa etməyə hazırıq. Biz bunun marağındayıq ki, Azərbaycan şirkətləri Ukraynada yollar tiksinlər. Bilirik ki, onlar başqa ölkələrdə uğurla işləyirlər". Bunu Ukrayna Prezidenti Vladimir Zelenski Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə birgə iştirak etdiyi Azərbaycan-Ukrayna biznes forumunda çıxışı zamanı deyib.**

*"...reytinq cədvəlində ön sırada qərarlaşması xarici dövlətlərin diqqətini cəlb edir"*

***Azər Allahverənov:** "Yaxın zamanlarda Ukraynada yol infrastrukturunun təkmilləşdirilməsi və inkişaf etdirilməsi prosesinə Azərbaycan şirkətləri cəlb olunacaq"*



Azərbaycan yol infrastrukturunun sorağı artıq xarici ölkələrin də diqqətini cəlb edir. Ölkəmizdə çəkilən yollar xarici ölkələrin marağına səbəb olduğu üçün, artıq qonşu ölkələr yol çəkilişi ilə bağlı Azərbaycanla əməkdaşlıq edirlər. Azərbaycan şirkətlərinin çəkdiyi yolların keyfiyyəti xarici ölkələrdə böyük rəğbətlə qarşılanır. Elə bu səbəbdən də Ukrayna Prezidenti Azərbaycan şirkətlərini həmin ölkəyə yol çəkməyə dəvət edir.

Məsələ ilə bağlı fikir bildirən Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanın yol infrastrukturu böyüyür və yolların abadlaşdırılması ilə bağlı kifayət qədər iri miqyaslı layihələr həyata keçirilir. Bu da beynəlxalq ictimaiyyətin diqqətində olan məsələdir: "Bəllidir ki, bir sıra beynəlxalq təşkilatlar müxtəlif istiqamətlər üzrə qiymətləndirmə aparırlar. Sevindirici haldır ki, yol infrastrukturuna görə Azərbaycan həmin nüfuzlu təşkilatların reytinq cədvəlində kifayət qədər yüksək yerdə qərarlaşıb. Azərbaycanın yol infrastrukturu və digər istiqamətlər üzrə ön sırada qərarlaşması xarici dövlətlərin diqqətini cəlb edir. O ölkələrdən biri də Ukraynadır".

Həmsöhbətimizin sözlərinə görə, yaxın zamanlarda Ukraynada yol infrastrukturunun təkmilləşdirilməsi və inkişaf etdirilməsi prosesinə Azərbaycan şirkətlərinin cəlb olunmasının şahidi olacağıq.

Məlumdur ki, Azərbaycan şirkətləri əksər xarici ölkədə bir sıra layihələr həyata keçirirlər. Eyni zamanda, qonşu Gürcüstanda da yol çəkilişi ilə bağlı bir sıra layihələr məhz Azərbaycana məxsusdur:

"Hesab edirəm ki, Azərbaycanın yol infrastrukturu ilə bağlı nailiyyətləri diqqətdən kənarda qalmır. Xarici ölkələr Azərbaycanın bu təcrübəsindən maksimum yararlanmaq niyyətindədirlər. Təbii ki, bu sevindirici haldır".

***Günel CƏLİLOVA***

# ÜDM-də özəl sektorun payı 84 faizə çatdı - Azərbaycan üçün qeyri-adi göstərici...

**"Azərbaycanda özəl sektorun ÜDM-də payı 84%-ə çatıb, ölkədə məşğul əhalinin 76%-i özəl sektorda çalışır". Bu barədə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev açıqlamasında deyib.**

*"Dövlət sektorunda olan elə müəssisələr var ki, növbəti mərhələdə onların da özəlləşdirilməsi ilə bağlı addımlar atılacaq"*

***Fikrət Yusifov:** "Bu, ölkə iqtisadiyyatının inkişafında özəl sektorun rolunun artmasının göstəricisidir"*



Onun sözlərinə görə, hazırda ölkə üzrə 142 min müəssisə və ya təşkilatın 91,4%-i və ya 130 mini məhz özəl sektorun payına düşür: "İqtisadiyyatın şaxələndirilməsi və neft amilindən asılılığın aradan qaldırılması ilə bağlı tədbirlər sırasında kənd təsərrüfatı mühüm yer tutur. Bu il iqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər 3,5% artıb. Əlavə dəyərin 6,2%-i məhz kənd təsərrüfatının payına düşür. 2019-cu ilin yanvar-oktyabr ayları üzrə kənd təsərrüfatının faktiki qiymətlərlə dəyəri 6.9 milyard manat təşkil edib ki, onun da 3,4 milyard manatı heyvandarlıq, 3,5 milyard manatı isə bitkiçilik məhsullarının payına düşür. 2019-cu ilin 10 ayı ərzində kənd təsərrüfatının ümumi məhsulu ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,2%, o cümlədən, bitkiçilik məhsullarının istehsalı 11,4%, heyvandarlıq məhsullarının istehsalı isə 3,2% artıb".

Özəl sektorun ÜDM-də çəkisinin artması bir sıra amillərlə bağlıdır. Bunun balıca səbəbi ölkə iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı aparılan sistemli islahatlardır. Nəzərə almaq lazımdır ki, son 3 ildə görülən tədbirlər nəticəsində ölkədə özəl sektorun inkişafı keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

Bütün bunlarla yanaşı, bəs ekspertlər Azərbaycanda özəl sektorun ÜDM-də payının əhəmiyyətli dərəcədə artmasını necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifov buna bir necə aspektdən yanaşdı. Onun fikrincə, özəl sektorun ÜDM-də çəkisinin artması iqtisadi sahədə görülən ardıcıl tədbirlərlə bağlıdır: "Azərbaycanda özəl sektorun ÜDM-də payının bu qədər böyük çəkiyə malik olması çox yaxşı haldır. Bu, ölkə iqtisadiyyatının inkişafında özəl sektorun rolunun artmasının göstəricisidir. Yəni bütün bunlar son illər ərzində ölkədə aparılan iqtisadi islahatların mahiyyətinə və bazar iqtisadiyyatının tələblərinə tam uyğundur. Hesab edirəm ki, sözügedən proses bundan sonra da davam etməlidir. Dövlət sektorunda olan elə müəssisələr var ki, növbəti mərhələdə onların da özəlləşdirilməsi ilə bağlı addımlar atılacaq. Nəticə etibarilə bu, həmin müəssisələrdə məhsuldarlığın daha da artmasına öz təsirini göstərəcək. Çünki özəlləşdirmə aparıldıqdan sonra istehsalın daha səmərəli təşkili üçün yeni imkanlar açılacaq. Ona görə də proses bundan sonra da davam etməlidir. Xüsusən də elektrik enerjisi, su, qaz təchizatı ilə bağlı sahələr özəlləşdirilməlidir. Hesab edirəm ki, sözügedən sahələrin özəlləşdirilməsi dövləti həm bir sıra qayğılardan xilas edəcək, eyni zamanda, bu sahələrin yaxşı rəqabət prinsipləri əsasında inkişafına ciddi bir təkan verəcək. Görülən işlər, bütövlükdə, dövlətin apardığı iqtisadi islahatların ruhuna uyğun bir addım olacaq.

Nəticə etibarilə dövlət və özəl sektorun ÜDM-dəki payı daha da optimal bir səviyyəyə gəlib çatacaq. Baxmayaraq ki, bugünkü rəqəm də çox yüksəkdir və kifayət qədər normal hesab edilə bilər. Ancaq sadaladığım sahələrin də yaxın gələcəkdə özəlləşdirilməsi bu baxımdan daha effektli nəticələr vəd edir".

***Vidadi ORDAHALLI***

# Yanmış "EuroHome"un sahibi sahibkarlara söz verdi, ancaq necə...

**Məlum olduğu kimi, dekabrın 10-da səhər saatlarında Bakı şəhərinin Binəqədi rayonunda yerləşən "EuroHome" tikinti materialları bazarı ərazisində yanğın baş verib. 5 hektarlıq ərazini əhatə edən bazar, demək olar ki, tam yanıb. Baş vermiş yanğın nəticəsində, ümumilikdə, 21000 kv.m. sahə yanıb.**




## Natiq Cəfərli: *"...heç bir sənədləşmə aparılmadığından, dəymiş ziyanın ödənilməsi böyük narazılıqlara səbəb olacaq"*

Ticarət mərkəzlərində baş verən yanğın hadisələri mallarını sığorta etdirməyən sahibkarlara dəymiş zərərin ödənilməsi məsələsini yenidən gündəmə gətirib. Bu günlərdə sahibkarlarla görüşən yanan "EuroHome" ticarət mərkəzinin sahibi icarəçilərlə kompensasiyanın ödənilməsini müzakirə edib. "EuroHome" ticarət mərkəzinin rəhbəri Azay Möhnətov deyib ki, dəymiş ziyan müəyyən edilir və sahibkarlara ödəniləcək kompensasiya şərtləri müzakirə edilir. O, icarəçilərə bildirib ki, dəymiş zərər hesablanandan sonra sahibkarlarla ödəniləcək kompensasiyanın məbləği haqqında yenidən müzakirə aparılacaq. Qeyd edək ki, hazırda icarəçiləri maraqlandıran əsas məsələ onlara dəyən zərərin necə hesablanacağıdır.

Xatırladaq ki, bu il martın 28-də "Diqlas"da baş verən yanğın zamanı da sahibkarların, demək olar ki, bütün malları külə dönmüşdü. Həmin ticarət mərkəzində də sahibkarlar öz mallarını sığorta etdirməmişdilər. Lakin ölkə Prezidenti humanist addım ataraq, yanğından zərər görən sahibkarlara yardım məqsədilə Prezidentin ehtiyat fondundan 3 milyon vəsait ayırdı. Daha sonra müvafiq qurumlar lazımi prosedurları həyata keçirdilər və zərər görən sahibkarlara dövlət tərəfindən maddi yardım edildi. Belə ki, mağaza, anbar icarəyə götürmüş və zərər çəkmiş sahibkara 10000 manat, piştaxta və digər sahə icarəyə götürmüş və zərər çəkmiş sahibkara 2000 manat vəsait ödənildi.

Analoji halın yenidən baş verəcəyi gözlənir. Bu səbəbdən də "EuroHome" ticarət mərkəzinin rəhbəri bu günlərdə malları yanan sahibkarlarla görüşüb. Görüş zamanı bildirib ki, mallarını sığorta etdirməyən sahibkarların malları hesablanaraq onun dəyərində zərər görmüş biznesmenlərə yardım veriləcək. Ancaq mallarını sığorta etdirməyən sahibkarlar mediaya açıqlamalarında bildiriblər ki, onlara dəymiş zərərin düzgün hesablanmayacağından narahatdırlar.

*"İcarəçi dəymiş ziyanı daha çox göstərmək istəyir, ticarət mərkəzinin sahibkarı isə bu məbləği azaltmaq marağında olur"*

Onu da qeyd edək ki, bəzi hallarda sahibkarlar bu kimi yanğın hadisələrindən daha çox qazanc əldə etmək istəyirlər. Bu səbəbdən onlara daha yüksək məbləğdə zərər dəydiyini bəyan edirlər.

Maraqlıdır, "EuroHome" ticarət mərkəzində baş vermiş yanğın zamanı mallarını sığorta etdirməyən sahibkarlara dəymiş zərər hansı qaydada hesablanacaq?

İqtisadçı Natiq Cəfərli bildirdi ki, sığorta olunmayan əmlaka dəymiş zərərin hesablanması praktiki baxımdan mümkün deyil: "Buna da səbəb qanunda nəzərdə tutulan müqavilə formalarının bu tip ticarət obyektlərində tətbiq edilməməsidir. İcarə müqaviləsi bağlanmalı, sığorta məsuliyyəti olmalıdır. İcarə müqaviləsi mədəniyyəti Azərbaycanda formalaşarsa, belə hallarda dəyən zərərin ödənilməsi asan olar. Çünki icarə müqaviləsinə görə sığortalanma qaydaları müəyyənləşdirilə bilər.

Bundan başqa, bu tip mağazalarda alınan malların qeydiyyatı olmadığından, hesabdan-hesaba pul köçürülmədiyindən, malların dəyərini hesablamaq çox çətindir. İndiki şərtlər daxilində mallar nağd alındığından, heç bir sənədləşmə aparılmadığından, dəymiş ziyanın ödənilməsi böyük narazılıqlara səbəb olacaq.

İcarəçi dəymiş ziyanı daha çox göstərmək istəyir, ticarət mərkəzinin sahibkarı isə bu məbləği azaltmaq marağında olur. Nəticədə maraqlar arasında konflikt yaranır. Bu problemlərin aradan qaldırılmasının əsas çıxış yolu müqavilə mədəniyyətinin bərqərar olması və alqı-satqı prosesinin sənədləşdirilməsi, şəffaflaşdırılmasıdır. Bunlar olarsa, sığorta qaydalarına uyğun olaraq, binanın sahibi ilə yanaşı, icarəçilər də dəymiş zərərə görə sığorta ala bilərlər".

***Günel CƏLİLOVA***

# Cavid Qurbanov Bakıda tramvayın yeni taleyini həll etdi, ancaq Bakıda tramvay xətləri salına biləcəkmi...

**Paytaxtda 80 ilə yaxın tarixi olan tramvay xətlərinin yenidən bərpası nəzərdə tutulur. Tramvayların bərpası "Yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda da öz əksini tapıb. Həmçinin, Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov Yeni Azərbaycan Partiyasının qərargahında keçirilən mətbuat konfransında bildirib ki, Bakıda tramvayların bərpası ilə bağlı Prezidentə müraciət edilib:**




## Oqtay Əliyev: *"Tramvay xətlərinin salınması üçün öncə yol infrastrukturu təhlil olunmalıdır"*

"Bu gün Bakıda tramvay xətlərini yenidən tikmək çətindir. Biz bu məsələ ilə bağlı ölkə başçısına müraciət etmişik. Bakı şəhəri Abşeronda yerləşdiyi üçün üçtərəfli su ilə əhatəlidir. Bakıya giriş-çıxış birdir və məhdudiyyət var. Bu məsələlər birbaşa dənizə qədər aparıldığı üçün məsələnin üzərində işləmək lazımdır. Artıq icraçı şirkətlərə müraciət etmişik, öz mütəxəssislərimiz də sistemli layihə hazırlayır. Fikirləşirik ki, Biləcəridən Pirşağı tərəfə bir neçə xətt çəkməklə Əhmədliyə, Tağıyev qəsəbəsi, Maştağa və Pirallahı istiqamətində bunu həyata keçirə bilərik. Məsələ bizim diqqətimizdədir".

Qeyd etdiyimiz kimi, təsdiq olunan dövlət proqramında tramvayların yenidən bərpa olunması da əks olunub. Həmin Dövlət Proqramında qeyd edilib ki, Azərbaycanda yol hərəkətinin təhlükəsizliyi səviyyəsinin artırılması, yol-nəqliyyat hadisələrinin sayının və onlar nəticəsində vurulan zərərin həcminin azaldılması, ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrindən istifadəyə keçidin təmin olunması üçün vahid proqram əsasında genişmiqyaslı, intensiv, sistemli və əlaqələndirilmiş tədbirlərin həyata keçirilməsinə ehtiyac var.

Məlumat üçün bildirək ki, 19-cu əsrin sonlarında Bakıda neft sənayesinin inkişafı ictimai nəqliyyat növünün inkişafına tələbat yaratdı. 1889-cu ildə yeganə olaraq şəhər nəqliyyatı üçün Bakıda "konqa" (polad rels xətti ilə işləyən fayton) tikilmişdi. Lakin nə faytonlar, nə də "konqa" neft paytaxtının tələbatını ödəmirdi.

1903-cü ildə Bakıda elektrik tramvay xətlərinin salınması barədə Şəhər Dumasına təklif gəldi. Bu təklifin reallaşması 20 il ləngidi. Nəhayət, 1922-ci ildə Bakı Soveti layihəni reallaşdıra bildi. Şəhərdə tramvay xətlərinin tikintisinə başlandı.

Şəhərdə ilk dəfə 1924-cü il fevralın 8-də elektrik-tramvay yolu istifadəyə verildi. Bu xətt Azneft yolu ilə Dəmir Yolu Vağzalını birləşdirirdi. Daha sonra tramvay xətləri ləğv olundu.

Maraqlıdır, Bakının müasir infrastrukturu tramvay xətlərinin yenidən çəkilməsinə imkan verirmi?

Tanınmış rəssam-dizayner Oqtay Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, Bakı kimi iri şəhərlərdə tramvay xətlərinin bərpası vacibdir: "Bu gün Bakının əksər küçə və prospektinin vəziyyəti tramvay xətlərinin çəkilməsinə imkan vermir. Bakıda keçmiş tramvay xətlərinin hamısını bərpa etmək mümkün deyil. Paytaxtda tramvay xətləri 2000-ci ildən sonra sökülməyə başladı. Bu gün tramvay xətlərinin keçdiyi yerlərin əksəriyyətində "göydələn" ucaldığından, həmin yollar daralıb. Tramvayın hərəkət etdiyi yollar isə enli olmalıdır. Ən azı yolun 6 metr eni olmalıdır ki, tramvay hərəkət edə bilsin".

*"Bakıda keçmiş tramvay xətlərinin hamısını bərpa etmək mümkün deyil"*

O.Əliyevin sözlərinə görə, Sovet dövründə Nərimanov rayonunda, Yasamalda tramvay xətti olub. Bu gün tramvay xətlərinin salınması üçün öncə yol infrastrukturu təhlil olunmalıdır: "Məsələn, Neftçilər prospektində tramvay xəttinin çəkilməsi real ola bilər. Tramvayların əvvəl hərəkət etdiyi Təbriz və Cənub küçələrində isə yol infrastrukturunun hazırkı vəziyyəti təhlil edilməlidir. Yalnız bundan sonra tramvayların hərəkətinin mümkünlüyü barədə danışmaq olar".

Həmsöhbətimiz onu da əlavə etdi ki, tramvay şəhərin atributlarından biridir, həm də mədəniyyət daşıyıcısıdır. Qeyd olunan nəqliyyat vasitəsinin tətbiq olunması təqdirəlayiqdir, şəhərin hazırkı vəziyyəti buna imkan verərsə, niyə də olmasın.

***Günel CƏLİLOVA***

**Azərbaycan orta məktəblərində tədris edilən resursların heç də hamısı ölkəmizdə istehsal edilmir. Xarici ölkələrdən də idxal olunan kifayət qədər tədris resursu, materialı, nəşri var. Məsələn, belə iddialar var ki, Azərbaycana ən çox bu cür vasitələr Çindən idxal olunur.**

# İdxal olunan xəritə, qlobus kimi məhsullarda milli ideologiyamızın əsaslarının mühafizə problemi...

***Kamran Əsədov:** "Hesab edirəm ki, Təhsil Nazirliyi yanında xaricdən idxal edilən tədris vəsaitlərinin ekspertizasını həyata keçirən bir qurum yaradılmalıdır"*



Buna da səbəb kimi Çin məhsullarının ucuzluğu göstərilir. Ümumiyyətlə, təkcə Çindən deyil, digər ölkələrdən də məhsullar alınıq və onu yerli bazarda satınq.

Yeri gəlmişkən, Azərbaycana qarşı həmişə qərəzli mövqeyi və apardığı qarayaxma kampaniyası ilə aktiv olan erməni mediası yazıb ki, guya Azərbaycan orta məktəblərində Çin istehsalı olan qlobuslardan istifadə edilir və həmin qlobuslarda Dağlıq Qarabağ və Naxçıvan Ermənistan əraziləri kimi göstərilib. Qlobus məsələsi erməni mediasının əsassız iddiası da ola bilər. Əlbəttə, Naxçıvan və Dağlıq Qarabağ ermənilərin ən böyük xülyasıdır. Naxçıvan və Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və ayrılmaz hissəsidir.

Ölkəmizə başqa ölkələrdən idxal olunan dərs vəsaitlərinin, tədris resurslarının, xəritələrin, qlobusların, müxtəlif cihazların yoxlanması, ekspertizadan keçirilməsi, bir sıra resursların Azərbaycanın milli ideologiyası, milli-mənəvi dəyərləri, dövlətçilik prinsipləri ilə uyğunluq təşkil etməsi əsas götürülməlidir. Ölkəmizə idxal olunan tədris resurslarının ekspertizası keçirilirmi?

Tarix üzrə fəlsəfə doktoru, tanınmış təhsil mütəxəssisi Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, xarici ölkələrdən Azərbaycana idxal edilən tədris resurslarının hər biri incələnməli, yoxlanmalıdır.

"Çox təəssüf ki, Azərbaycanda xaricdən ölkəmizə idxal edilən tədris vəsaitlərini, resursları, xəritələri, qlobusları, eləcə də başqa nümunələri ekspertizadan keçirəcək bir qurum yoxdur. Hesab edirəm ki, Təhsil Nazirliyi yanında xaricdən idxal edilən tədris vəsaitlərinin ekspertizasını həyata keçirən bir qurum yaradılmalıdır. Ölkəmizə idxal olunan tədris resursları yalnız gömrükdə yoxlanır və təbii ki, o məhsulları gətirən işbazlar, gömrük əməkdaşları bu vəsaitlərin məzmunundan xəbərdar olmurlar. Baxırlar ki, xəritədir, qlobusdur, kimya laboratoriyasında istifadə edilən cihazdır, yaxud kitabdır, buraxırlar. Onların bu vəsaitlərin məzmunundan xəbərləri olmaya bilər. Dünya təcrübəsində belədir ki, ölkəyə gətirilən, idxal olunan istənilən tədris vəsaiti bütöv şəkildə yoxlanır, ekspertizadan keçirilir və sonra onun satışına icazə verilir. Xaricdə ekspertizadan keçməyən heç bir məhsulu bazara çıxarmırlar. Bizdə isə təəssüf ki, belə deyil. Təəssüflər olsun ki, bəzi işbaz şirkətlər ölkəmizə dövlətçiliyimiz, milli-mənəvi dəyərlərimiz üçün təhlükəli olan informasiyalarla dolu vəsaitlər də gətirirlər. Burada Azərbaycana qarşı ərazi iddialarının yer aldığı xəritələrə, qlobuslara, eləcə də üzərində Azərbaycanın milli-mənəvi dəyərlərinə, şagirdlərin yaş psixologiyasına zidd olan şəkillər olan albomlara, vəsaitlərə də rast gəlinir. Bir də görürsən ki, xarici ölkələrdən biologiya dərsinə aid hansısa bir vəsait gətirilib, amma onun içindəki şəkillər Azərbaycanın milli-mənəvi dəyərlərinə ziddir.

*"...dövlətçiliyimiz, milli-mənəvi dəyərlərimiz üçün təhlükəli olan informasiyalarla dolu vəsaitlər də gətirirlər"*

Ona görə də ölkəyə gətirilən dərs vəsaitlərinin, tədris resurslarının yoxlanılması üçün ekspertiza qurumu olmalıdır ki, bütün vəsaitlərə onlar nəzarət etsin".

K.Əsədov hesab edir ki, bu işə nəzarət olmasa, işbazlar pul qazanmaq naminə hər cür vəsaitlər gətirə bilərlər. Bizdə təəssüf ki, bu sahədə nəzarət mexanizminin olmadığını deyən K.Əsədov, həmçinin, hesab edir ki, artıq Azərbaycan özü xəritə, qlobus, digər tədris üçün gərəkli olan resurslar istehsal etməyə çalışmalıdır. Ölkəmizin buna potensialının və imkanlarının yetdiyini deyən K.Əsədov bildirir ki, Azərbaycan bu vəsaitlərlə ölkə məktəblərini təmin etdikdən sonra xaricə də ixrac edə bilər. "Bir çox hallarda Çindən və digər ölkələrdən nəzarət olmadan gətirilən bu əlavə vəsaitlər orta məktəblərə ayaq açırlar. Ölkənin 4472 orta ümumtəhsil məktəbində 1,6 milyon şagird təhsil alır, bu kifayət qədər böyük bir kontingentdir. Hesab edirəm ki, Azərbaycan özü artıq tədris resursları istehsal etməli və bu resurslarla həm ölkə məktəblərini təmin etməli, həm də ixracçı ölkəyə çevrilməlidir" - deyə K.Əsədov vurğuladı.

***İradə SARIYEVA***

---

**Kommersiya bankları kredit faizlərini aşağı salmaq istəmir. Mərkəzi Bankın İdarə Heyəti uçot dərəcəsinin 25 baza punktu azaldılaraq 7.75%-dən 7.5%-ə endirilməsi haqda qərar qəbul edib. Bankdan verilən məlumata görə, faiz dəhlizinin yuxarı və aşağı hədləri uçot dərəcəsinə ±1.75%-lik diapazonda müəyyənləşdirilib (9.25% və 5.75%).**

# Mərkəzi Bankın 8 dəfə addım atması - nəticə niyə olmur...




İdarə Heyətinin pul siyasətinə dair son toplantısından keçən dövrdə illik inflyasiya proqnozlaşdırılan trayektoriyadan kənara çıxmayıb və hədəf diapazonunun mərkəzindən aşağıda qalıb. Kreditlərin illik faiz dərəcələrinin yüksək olması məsələsi dövri olaraq zaman-zaman gündəmə gəlir. Hər dəfə sözügedən problem qaldırılanda qarşılıqlı günahlandırma prosesi başlayır. Ancaq bütün hallarda məsələ həllini tapmamış gündəmdən çıxır. Məsələn, kredit götürənlər, o cümlədən sahibkarlar daim faiz dərəcələrinin yüksək olmasından şikayətlənirlər. Kredit verən təşkilatlar isə bu fikri bölüşməsələr də, hərdən yüksək faiz fonunda qazanclarının az olduğunu önə çəkərək səbəbi başqa yerdə axtarmağa çalışırlar. Ancaq reallıq ondan ibarətdir ki, kommersiya bankları, faktiki olaraq MB-nin bu yöndə atdığı addımları saya salmır. Hansı ki, 2019-cu ildə uçot dərəcəsi 9,75 faizdən 7.5 faizə endirilib. Bunun nəticəsidir ki, 2019-cu ildə MB 8 dəfə uçot dərəcəsini aşağı endirsə də, bu yöndə heç bir irəliləyiş qeydə alınmayıb. Məlumat üçün qeyd edək ki, uçot dərəcəsi 2019-cu ilin fevral ayında 9,25%-ə, mart ayında 9%-ə, aprel ayında 8,75%-ə, İyun ayında isə 8,5%-ə, sentyabrda 8%-ə, oktyabrda 8%-dən 7,75%-ə, ən nəhayət dünən 7,75%-dən 7,5%-ə endirildi. Uçot dərəcəsinin aşağı salınması ilə bağlı MB-nin atdığı addımlara baxmayaraq, kommersiya banklarının kredit faizlərinin aşağı düşməsi ilə bağlı hər hansı səy, demək olar, göstərmirlər. Bir məqamı da qeyd edək ki, 2017-ci ildə Mərkəzi Bankın uçot dərəcəsi 15% səviyyəsində idi. Təkcə 2018-ci ildə MB 4 dəfə uçot dərəcəsini aşağı salıb. Ondan sonra da, qeyd olunduğu kimi, 2019-cu ildə sözügedən proses davam etdirildi. Ən başlıcası, bu ilin fevralında Prezident İlham Əliyevin qərarı ilə fiziki şəxslərin problemli kreditləri dövlət vəsaiti hesabına ödənildi. Bu ilin aprelində MB sədri Elmən Rüstəmov mediyaya açıqlamasında bildirmişdi ki, Mərkəzi Bankın müəyyən etdiyi uçot dərəcəsi ölkədə olan bütün (həm əmanətlər üzrə, həm də kreditlər üzrə) faiz göstəricilərinə təsir edəcək: "Yeni büdcə qaydalarına keçid bizə imkan verir ki, Mərkəzi Bankın qəbul etdiyi uçot dərəcəsinin faizi ölkədə kredit və əmanət faizlərinə təsir etsin". Bütün bunlardan sonra güman edilirdi ki, bankların təklif etdiyi həm biznes, həm istehlak kreditlərinin faizləri aşağı düşəcək. Ancaq bunların heç biri baş vermədi. Bu o deməkdir ki, MB nisbətən daha yumşaq pul siyasəti həyata keçirsə də, kommersiya bankları bütün bunları nəzərə almır. Bu sahədə gedən proseslər onu göstərir ki, əslində, kreditlərin faizlərinin aşağı düşməsi üçün yetərli iqtisadi və maliyyə zəmini var. Milli valyutanın mübadilə məzənnəsi uzun müddətdir sabitdir və bunun qarşıdakı illərdə də davam edəcəyi gözlənilir. Bankların ucuz kredit resurslarına çıxış imkanları əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşıb. Bütün bunlara rəğmən, banklar kredit faizlərini niyə ucuzlaşdırmır? Hazırda Azərbaycanda kommersiya banklarının depozit portfeli ilə, kredit portfeli arasında faizlər baxımından kəskin fərq var.

Bunun başlıca səbəbi bankların əvvəlki kimi daha çox gəlir əldə etmək hərisliyidir. Təəssüflər olsun ki, qısa müddətə daha çox gəlir əldə etmək prinsipi banklar üçün prioritet olaraq qalır.

O üzdən, banklar məqsədyönlü şəkildə kredit faizlərini aşağı salmır. Baxmayaraq ki, bankların mövcud kredit siyasəti və bu zaman müəyyən edilən fiazlərin, əslində heç bir iqtisadi əsası yoxdur. Belə görünür ki, yaxın perspektivdə də banklar kredit faizlərini aşağı salmayacaq.

***Vidadi ORDAHALLI***

# İlin şairləri, ilin artistləri, ilin deputatları, ilin şoumenləri - yeni "əcaib fəxri adları" əsasən reputasiyası qeyri-müəyyən qurumlar paylayır...

**Bu gün Azərbaycanda müxtəlif ictimai qurumlar, təşkilatlar var ki, öz mövcudluqlarını yada salmaq üçün müxtəlif üsullardan istifadə edirlər. Ayrı-ayrı adlar altında fəaliyyət göstərən bu təşkilatların hamısını bir məsələ birləşdirir - diplom satmaq.**



Son vaxtlar çoxumuz yaxından müşahidə edirik ki, ortaya çıxan bəzi qeyri-dövlət təşkilatları heç bir ictimai rəy sorğusu keçirmədən, obyektivliyə istinad etmədən müxtəlif sənət və peşə sahiblərinə "ilin şairi", "ilin yazıçısı", "ilin deputatı", "ilin şoumeni", "ilin həkimi" və s. diplomlar verirlər.

Maraqlıdır ki, bu adları təsis edən və paylayan qurumların böyük əksəriyyəti reputasiyası sağlam olmayan təşkilatlardır. Onlar özlərini populyarlaşdırmaq, gündəmə gətirmək üçün qondarma tədbirlər keçirir və ilin sonunda müxtəlif adamlara diplomlar verirlər.

İş burasındadır ki, bu diplomlar müğənnilərə, şairlərə, yazıçılara, deputatlara və digər tanınan şəxslərə havayı verilmir, pulla satılır. Biz bu diplomları paylayan təşkilatların və diplomların adlarını çəkmək istəmirik. Söhbətin hansı təşkilatlardan və hansı diplomlardan, mükafatlardan getdiyini çoxunuz yaxşı bilirsiniz.

Tanınmış şairə Qiymət Məhərrəmli bizimlə söhbətində bildirdi ki, yazıçı və şairin, sənətkarın, elm adamının "ilin adamı", yaxud "ilin şairi" olmasını heç bir vaxt o cür qurumlar müəyyən edə bilməz. Bu qurumların çoxunun qeyri-şəffaf fəaliyyət göstərdiyini qeyd edən Q.Məhərrəmli bildirdi ki, bu diplomlar heç bir vaxt həqiqi mükafat statusu daşıya bilməz. "Elə təşkilatlar var ki, doğrudan da onların təqdim etdikləri diplomlar həqiqi sahibinə çatır, amma belə qurumlar çox azdır. Təəssüf ki, ölkəmizdə bir sıra qondarma təşkilatlar var və onların işigücü ilin sonunda bir banket zalı kirayələyib,

***Qiymət Məhərrəmli:** "Bir sıra təşkilatların verdiyi "ilin şairi", "ilin yazıçısı", "ilin deputatı", "ilin həkimi" kimi diplomlar, adlar saxtadır"*

***Zəka Vilayətoğlu:** "Bu, ürək ağrıdan, təəssüf doğuran bir Azərbaycan reallığıdır"*

tanınmış şəxsləri ora dəvət edib onlara pulla diplom satmaqdır. Bu qurumlar müxtəlif şairləri, yazıçıları, həkimləri, müğənniləri, deputatları "ilin şairi", "ilin yazıçısı", "ilin deputatı", "ilin həkimi" "elan" etməklə, əslində, o insanları aldadırlar. Bir sıra təşkilatların verdiyi "ilin şairi", "ilin yazıçısı", "ilin deputatı", "ilin həkimi" kimi diplomlar, adlar saxtadır. Çünki "ilin şairi" diplomu şairlərə həmin qurumun rəyi ilə deyil, ictimaiyyətin verdiyi səsvermənin nəticəsinə uyğun verilməlidir. Bizdə isə heç bir rəy sorğusu keçirmədən bu diplomları verirlər. Təbii, bu işlə məşğul olanların böyük əksəriyyəti işbazlardır" - deyə Q.Məhərrəmli vurğuladı.

Tanınmış yazıçı, müğənni-bəstəkar Zəka Vilayətoğlu da belə qurumların payladığı diplomların qeyri-ciddiliyini önə çəkdi. "Bu cür məsələlər məni də zamanla çox düşündürüb və düşündürməkdədir. Artıq belə şeylər mənə görə ciddiliyini və əhəmiyyətini tamamilə itirib.

Deyim ki, bu kimi təltiflər, təqdimatlar bu gün ciddi söz adamlarının ironiyasına səbəb olan, havayı təqdim olunsa belə onların qəbul etməyəcəyi "Qızıl qələm" mükafatı qədər əhəmiyyətsiz, dəyərsiz bir şeydir.

**Əksər hallarda, bu cür mükafatlar hər hansı bir məbləğdə pul ödənişi müqabilində və ya qohumluq, dostluq, tanışlıq hesabına verilir. Bu, ürək ağrıdan, təəssüf doğuran bir Azərbaycan reallığıdır" - deyə müsahibimiz qeyd etdi.**

***İradə SARIYEVA***

# Miqrantları dayə kimi çalışdırmaq Azərbaycan mentalı baxımından doğrudurmu...

**Son vaxtlar azərbaycanlıların xaricdə təhsil, iş, karyera qurmaq istəkləri getdikcə artır. Eyni zamanda, xaricdən Azərbaycana işləmək üçün miqrasiya edənlər də az deyil. Azərbaycana tikinti, biznes sektorunda çalışmaq üçün üz tutanlarla yanaşı, xarici dayə, bağbanlara üstünlük verən həmvətənlərimiz də var.**



Təbii ki, bunu edənlər quru maaşa işləyib, hər ayın müəyyən günü alacağı əməkhaqqına gözünü dikənlər deyil, daha çox gəliri olan, hətta bu gəlirləri xarici dayə axtarışına sərf edənlərdir. Arqument isə çox primitivdir: "Uşaq xarici dayənin yanında daha təfəkkürlü olacaq, onun istifadə etdiyi dili öyrənəcək, bir sözlə, uşaq tamamilə başqa ruhda böyüyəcək".

Xaricdən övladlarını tərbiyə edilməsi üçün dayə gətirən ailələr az deyil. Azərbaycana əsasən Flippindən, İngiltərədən, Koreyadan və digər ölkələrdən dayələr gətirilir. Ekspertlər bildirir ki, bu dayələr də həmin uşaqlara öz mədəniyyətlərini və dillərini təbliğ edirlər: "Hətta onlar baxdıqları uşaqlara Azərbaycan dilində danışmağı qadağan edirlər. Bu isə bizim milli-mənəvi dəyələrimizə ziddir və həmin uşaqlar böyüyəndə öz ana dillərində danışa bilmirlər. Odur ki, bu olduqca təhlükəli tendensiyadır və bunun qarşısı vaxtında alınmalıdır".

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli qeyd etdi ki, hansısa imkanlı məmurun, yaxud da sıradan bir imkanlı şəxsin xaricdən dayə gətirməsi tənqid oluna bilməz: "Başqa xalqların mədəniyyətinin, dilinin uşağa öyrədilməsində heç bir qəbahət yoxdur. Amma uşaq ana dilini də mükəmməl bilməlidir. Həmin şəxslər bilməlidirlər ki, uşaq azərbaycanlıdırsa, ona öz mental dəyərləri, mədəniyyəti, dili öyrədilməlidir. Başqa xalqın mədəniyyətini Avropa səviyyəsində mənimsəyən uşaq eyni zamanda öz adət-ənənələrini də bilməlidir. Çünki o uşağı nə qədər Avropaya istiqamətləndirsələr də, uşağın gələcək həyatı vətəni ilə bağlı olacaq. Odur ki, vaxtında uşağa öz mədəniyyətini, dəyərlərini, dilini öyrədən dayə seçməlidirlər ki, mənim fikrimcə də bu, hər bir uşağın öz anası olmalıdır". Həmsöhbətimiz onu da vurğuladı ki, ölkədə çoxlu sayda müəllim olduğu halda, xaricdən əcnəbi dayə gətirilməsi düzgün deyil: "Həmin şəxslər elə hesab edirlər ki, Filippindən, Koreyadan dayə gətirməklə uşaqları yüksək səviyyədə təlim-tərbiyə almış olacaq. Amma bəzən həmin şəxslər öz ölkələrində 4-cü 5-ci dərəcəli mütəxəssislər olur. Ölkəmizdə isə bağçada uzun müddət tərbiyəçi işləmiş müəllimlər var ki, onlar işsizdirlər. Yaxşı olar ki, həmin imkanlı şəxslər Filippinə gedincə elə həmin müəllimləri işə götürsünlər. Uşaqları da milli ruhda tərbiyə alaraq cəmiyyətə layiqli vətəndaş kimi yetişsin".

***Fatimə Hacıbəyli:** "Ölkədə çoxlu sayda müəllim olduğu halda, xaricdən əcnəbi dayə gətirilməsi düzgün deyil"*

***Azər Allahverənov:** "Xüsusilə Cənubi-Şərqi Asiya ölkələrindən insanlar dayəliyə daha çox cəlb edilir"*

Miqrasiya sahəsi üzrə ekspert Azər Allahverənov bildirdi ki, vaxtilə Azərbaycana əcnəbi dayələrin cəlb olunması tendensiyası geniş vüsət almışdı: "Xüsusilə Cənubi-Şərqi Asiya ölkələrindən insanlar dayəliyə cəlb edilirdi. Üstünlük verilməsinə əsas səbəb kimi də dayələrin xarici dil daşıyıcılığı əsas götürlürdü.

Onları işə cəlb edən valideynlər maraqlı idi ki, dayənin xarici dil bilikləri çox olsun və onun övladı da həmin dayə sayəsində daha dil öyrənsin, danışmaq bacarıqlarını uşaq yaşlarından inkişaf etdirsinlər".

***Günel CƏLİLOVA***

# Kinolarımız 22 ildir "Oskar"a yol döyür, nəticə yoxdur...

## *Əli İsa Cabbarov: "A kateqoriyalı festivalda mükafatımız olmadığı üçün, bizim filmlər "Oskar"a namizəd ola bilmir"*

**Azərbaycan kinosunun ölkəmizdən kənarda tanınmamasının, habelə dünya kinosunda böyük nüfuz qazanan beynəlxalq kino mükafatlarından kənarda qalmasının səbəbləri illərdir ki, əsas müzakirə mövzusudur. Azərbaycan kinosunun "Biləcəridən o yana çıxa bilməməsi"nin səbəbləri əlbəttə müxtəlifdir. Bu barədə bir az sonra söhbət açacağıq.**

Gələk Azərbaycan kinosunun indiyə qədər "Oskar" mükafatı ala bilməməsinin səbəblərinə.

Amerika Kino Sənəti Akademiyasının təsis etdiyi və 1929-cu ildən bəri təqdim etdiyi kino sahəsində nüfuzlu "Oskar" mükafatı hələ də Azərbaycan kinosu üçün uzaq və əlçatmaz görünür. 1929-cu ildən etibarən hər il təqdim edilən bu nüfuzlu mükafatı qazanmaq üçün Azərbaycan kinosu hansı yollardan keçməlidir, hansı maneələri dəf etməlidir?

Yeri gəlmişkən deyək ki, "Oskar" mükafatına namizədlər sayı 5-dən çox olmamaq şərtilə gizli səsvermə vasitəsilə irəli sürülür. Qalib akademiyanın həmişəlik seçilmiş bütün aktiv üzvlərinin ümumi səsverməsi nəticəsində təyin edilir.

"Oskar"ın ilk laureatı…

Dünya kino çapında prestijli sayılan "Oskar" mükafatının ilk laureatı "Sonuncu göstəriş" və "Bütün cisimlərin yolu" filmlərindəki rollarına görə qalib elan edilmiş Emil Yanninqs olub. Birinci mərasimin ilk namizədləri arasında "Sirk" filmi ilə Çarli Çaplin də olub, lakin o, ümumi siyahıdan kənar olaraq, xüsusi mükafat qazanmışdı.

Qeyd edək ki, ilk illərdə mükafatın verilmə qaydaları indikindən fərqlənirdi: "Ən yaxşı kişi rolu" kateqoriyasında qalibin seçilməsi üçün aktyorun kinoda ifa etdiyi bir neçə rola diqqət yetirilirdi. Yekun olaraq akademiyanın ümumi münsiflər heyəti hər istiqamət üzrə yalnız bir təqdimat qərarı qəbul edirdi. Üçüncü təqdimetmə mərasimində səsvermə zamanı iki kino əsərinə baxılsa da, qalibin adının yanında yalnız bir film göstərildi. Dördüncü mərasimdə artıq dəqiqləşmə aparıldı: aktyor yalnız bir konkret filmə görə namizəd ola bilərdi.

"Oskar"ın ilbəil dəyişən qaydaları…

1936-cı ildən 1945-ci ilə qədər namizədlərin müəyyən edilməsi və qaliblərin seçilməsi prosesi tək akademiyanın həqiqi üzvləri tərəfindən yox, həm də peşəkar gildiyanın tərkibində olan aktyorlar tərəfindən həyata keçirilirdi. Sonrakı dövrdə - 1957-ci ilə qədər isə aktyor gildiyaları namizədlərin siyahısını tərtib edirdi, akademiyanın üzvləri isə qalibin seçilməsi üçün səsvermə keçirirdilər. 1957-ci ildən bütün bu proses yenidən akademiyanın daxili işi oldu.

Səkkizinci mərasimə qədər bu kateqoriyada həm baş, həm də ikinci dərəcəli rolları ifa edən aktyorlar mükafatlandırılırdılar. Yalnız növbəti ildən akademiya "Ən yaxşı ikinci plan kişi roluna görə" adlı yeni nominasiyanı təsis etdi.

Aktyorlar əsas nominasiyadan başqa həm də "Kinematoqrafda mühüm xidmətlərinə görə" adlı xüsusi kateqoriyada heykəlciyi əldə edə bilərdilər. 18 yaşına qədər olan aktyorlar üçün isə Akademiyanın gənclər üçün təsis etdiyi mükafat nəzərdə tutulmuşdu. Bu mükafat 1961-ci ilə qədər mövcud oldu.

"Oskar" mükafatından kimlər imtina edib?

Aktyorlar üçün nəzərdə tutulmuş bu mükafatın tarixində iki dəfə ondan imtina edilib. Bu hal birinci dəfə 1971-ci ildə "Patton" filmindəki roluna görə aktyor Corc Skottla yaşandı. İkinci dəfə isə bu hadisədən cəmi iki il sonra Marlon Brandonun "Xaç atası" dramında ifa etdiyi Vito Korleone roluna görə layiq görüldüyü mükafatdan imtina etməsilə müşahidə olundu. Corc Skottun sakit, gözə o qədər də çarpmayan bu addımından fərqli olaraq, Marlon Brando öz imtinasını tamaşaya çevirdi. Həmin mərasimin prodüseri Brüs Devis belə hesab edirdi. Brandonun əvəzinə səhnəyə çıxan hindu nümayəndə qadın Saşin Littlfezerin izahından sonra aktyorun bu heykəlcikdən imtina etməsi məlum oldu. Brandonun bu imtinada məqsədi kinematoqrafçıların hindulara olan münasibətinə qəti etirazını bildirmək idi.

Sonuncu Ən yaxşı kişi roluna görə "Oskar" mükafatını 90-cı təqdimat mərasimində "Tutqun zamanlar" filmindəki roluna görə aktyor Qari Oldmen əldə edib.

2007-ci ildən indiyə qədər Azərbaycan kinosu "Oskar"a namizəd ola bilməyib…

Qayıdaq hələ də "Oskar"ın qapısı ağzında gözləmə mövqeyində dayanan Azərbaycan filmlərinə.

Azərbaycan 2007-ci ildən bəri "Ən yaxşı xarici film" üzrə Oskar mükafatına filmlərini təqdim edir. Bu mükafat əsasən ingilis dili daxil olmayan dialoqlardan təşkil olunmuş bədii filmlərə verilir. Filmlərimiz təqdim edilsə də, hələ o filmlərin heç biri "Oskar" mükafatına namizəd kimi belə qeydə alınmayıb.

Araşdırmalarımız nəticəsində məlum oldu ki, Azərbaycan 2014-cü il etibarilə 6 Azərbaycan filmi "Ən yaxşı xarici film" üçün təqdim edilib, ancaq heç biri "Oskar"a namizəd ola bilməyib

İndiyə qədər "Ən yaxşı xarici film" üzrə Oskar mükafatına təqdim edilən Azərbaycan filmlərinin adlarına gəlincə, bunlar əsasən son illər "Azərbaycanfilm" Kinostudiyası və özəl prodakşnlar tərəfindən çəkilən filmlərdir. Bu filmlərdən biri 2012-ci ildə "Oskar" Milli Komitəsi tərəfindən "Ən yaxşı xarici film" nominasiyasına namizəd seçilən dram janrında çəkilən "Buta" tammetrajlı uşaq filmidir. İlqar Nəcəfin senarisi və rejissorluğu ilə gerçəkləşən filmin ərsəyə gəlməsində kinorejissor Ramiz Fətəliyevin də rolu olub.



"Azərbaycanfilm"in və "Buta-film"in birgə istehsalı olan "Buta" filmi həmçinin 2013-cü ildə Polşada nümayiş olunub, filmin bəstəkarı xalq artisti, görkəmli Azərbaycan bəstəkarı Cavanşir Quliyevdir."Buta" Asiya-Sakit Okean Kino Akademiyası 2011-ci il "Ən yaxşı uşaq filmi" nominasiyasında qalib olub, Keyptaun (CAR) şəhərində keçirilən "Cape Winelands Film Festival"ın Qran-pri mükafatını qazanıb,

ABŞ-ın "World Fest - Houston International Film Festival"ında "Platinum Remi" mükafatını əldə edib, "Humay" Milli Mükafatının laureatı olub.

Filmlərimiz niyə bu mükafata namizəd ola bilmir?

"Oskar"a təqdim edilən digər Azərbaycan filmi isə yenə də İlqar Nəcəfin (Asif Rüstəmovla birgə) ssenari müəllifi olduğu və quruluş verdiyi və 2017-ci ildə çəkdiyi "Xarici dildə ən yaxşı filmə" görə mükafatına təqdim edilən "Nar bağı" filmi olub. Lakin "Nar bağı" da "Oskar"ın qapısından içəri girə bilməyib. Bundan başqa "Oskar"a iddialı olan filmlər arasında Fərid Hümbətovun müharibə janrında çəkdiyi (ssenari F.H) "Qafqaz" filmi də olub. Qeyd edilənə görə, 2008-ci ildə Azərbaycanın bu filminin dünyanın ən nüfuzlu kino mükafatına namizədliyi irəli sürülüb. Görünüdüyü kimi Amerika Kino Akademiyasının təsis etdiyi "Oskar" mükafatının "Ən yaxşı əcnəbi film" nominasiyasına iddialı olan 63 ölkənin məhsulu arasında Azərbaycan filmi "Qafqaz" da var idi.

"Qafqaz", beynəlxalq standartlara uyğun olaraq, High Definition rəqəmli kinokamera ilə lentə alınıb. Filmin çəkilişlərinə təxminən 500 min dollar vəsait xərclənib və filmin Rusiyadakı gəliri 43854 dollar təşkil edir. Amma "Qafqaz" da "Oskar"ın baryerlərini aşa bilməyib. "Oskar"a iddialı filmlərimiz sırasında Şamil Nəcəfzadənin və Ramiz Rövşənin ssenarisi əsasında Ş.Nəcəfzadənin 2008-ci ildə dram, faciəvi komediya jnrında "Azərbaycanfilm"də çəkdiyi "Qala" tammetrajlı bədii filmi də olub. 2010-cu ildə Azərbaycandan 83-cü Oskar mükafatının "Xarici dildə ən yaxşı filmə görə" nominasiyasına göndərilən və İlqar Safatın "Nərimanfilm"də (həmçinin Georgiafilm, Bagirafilm) istehsal etdiyi "Sahə" filmi də "Oskar"da tilsimi qıra bilməyib. Tanınmış kinorejissor Şamil Əliyevin 2012-ci ildə Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm"də fəlsəfi dram janrında çəkdiyi populyar "Çölçü" (ssenari müəllifi Vidadi Həsənov) 2013-cü ildə "Oskar"a iddialı olan filmlər sırasında olub. Elçin Musaoğlunun 2014-cü ildə (ssenari E.Musaoğlu və Elxan Nəbiyev) "Azərbaycanfilm"də çəkdiyi "Nabat" filmi də "Oskar" komissiyasına təqdim edilib, amma bu film də mükafata namizəd kimi komitə tərəfindən irəli sürülməyib.

Filmlərimizin yolunu kimlər və niyə kəsir?

Qeyd edək ki, Azərbaycan filmlərinin "Oskar" mükafatına namizəd kimi göstərilməsinin, bu mükafata layiq görülməsinin qarşısını kəsən bir sıra amillər var. Bu amillər o qədər çoxdur ki, onları bir-bir sadalamaq xeyli vaxt apara bilər. Burada əsas olan bir neçə faktı qeyd etmək yerinə düşərdi. Əvvələ deyək ki, son illər Azərbaycanda kino istehsalı sahəsində xeyli irəliləyiş var və dövlət büdcəsindən ayrılan maliyyə hesabına il ərzində ən azı 4 tammetrajlı film istehsal edilir, özəl prodakşnlarda da istehsal müşahidə edilir. Dövlətin kinonu tam olaraq öz himayəsinə götürməsinə baxmayaraq, yenə də filmlərimizin xaricə çıxışı çox zəifdir. Əlbəttə, burada əsas məsuliyyət kino məmurlarının üzərinə düşür, bir də o filmlərin prodüserləri bu işdə məsuliyyət daşıyır. Filmin xaricə çıxmasında prodüserin rolu böyükdür, o filmlərin yayımının təmin edilməsi, mükafatlara təqdim edilməsi istiqamətində piarla məşğul olmalı, əlaqələr yaratmalıdır. Doğrudur, Azərbaycanda kinoprodüserlik institutu tam formalaşmadığı və bəzi kino məmurlarının bu sahəyə müdaxilə etməsi sayəsində mövcud problemlər yaranır. Mütəxəssislərlə söhbət zamanı onlar deyirlər ki, "Oskar"a iddialı olan Azərbaycan filmlərinin orada qarşısını kəsən amillərdən biri bu filmlərin xarici kino şirkətləri ilə birgə istehsal olmaması, digər bir səbəb Azərbaycanının AVROMAŞ və digər nüfuzlu kino təşkilatlarına üzv olmaması ilə bağlıdır. Digər səbəb isə "Oskar" təşkilatına yaxın olan erməni lobbisinin törətdiyi maneələrdir ki, onu dəf etmək o qədər də asan deyil. Məsələ burasındadır ki, müasir Azərbaycan kinosu peşəkarlıq, mövzu baxımından asamır. Amma iddialar var ki, gərək Azərbaycan filmlərinin mövzusunu müharibə, millimənəvi dəyərlər, Qarabağ mövzusu deyil, tamam başqa mövzular tutsun. Hətta bəzi peşəkar kino xadimləri deyirlər ki, Azərbaycan kinosunun qarşısında duran maneələrin siyasi səbəbləri də az deyil. Azərbaycan filmlərinin "Oskar"a layiq görülə bilməməsinin səbəblərini araşdırdıqca ortaya min bir fakt çıxır. Amma əsas məsələ odur ki, filmlərimizin "Oskar"ın qapısını açıb içəri daxil olması üçün çox işlər görülməlidir. Onu da vurğulayaq ki, ölkəmizdə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının nəzdində Amerika Kino Akademiyasının Azərbaycan üzrə "Oskar" komissiyası fəaliyyət göstərir, filmlərimizi "Oskar" Komitəsinə bu komissiya təqdim edir, lakin hələ də bir dənə də olsa filmimiz bu nominasiyada qalib gəlməyib. Yəni əvvəllər Azərbaycan filmlərinin "Oskar" mükafatına namizəd olması üçün ölkəmizdə "Oskar" komissiyasının yaradılması vacib sayılırdı, artıq bu komitə var.

Bir müddət əvvəl mətbuata açıqlama verən görkəmli kinorejissor Şamil Əliyev qeyd edirdi ki, müəllifi olduğu "Çölçü" filmi bütün qayda-qanunlara riayət olunaraq "Oskar" mükafatının uzun siyahısına təqdim olunub. O hesab edirdi ki, nəhayət, bizim də filmlərimiz, artıq beynəlxalq layihələrin uzun siyahısında belə olsa, yer ala bilib.

"Azərbaycan filmləri həmişə "Oskar" mükafatına təqdim edilən filmlərin uzun siyahısında olub"

Tanınmış kinorejissor Əli İsa Cabbarov baki-xeber.com-a bildirdi ki, Azərbaycandan həmişə "Oskar"a layqili filmlər təqdim edilib:"Həmişə "Oskar" komissiyaları tərəfindən bu mükafata layiqli filmlər təqdim edilib. Eyni zamanda Rüstəm İbrahimbəyovun rəhbərliyi ilə komissiya var idi, indi də komissiya mövcuddur, sadəcə o, Bakıda olmurdu deyə ora filmlər təqdim edilmirdi. İndiyə qədər "Oskar" komitəsinə təqdim edilən Azərbaycan filmlərinin 4-nü Rüstəm İbrahimbəyovun rəhbərlik etdiyi komissiya təqdim edib, sonrakı mərhələdə isə filmləri bu mükafata yeni yaranan Respublika Kinematoqrafiya İttifaqı təqdim edib. "Nabat" və "Nar bağı" filmlərini yeni komissiya təqdim edib. Azərbaycan filmləri həmişə "Oskar" mükafatına təqdim edilən filmlərin uzun siyahısında olub. Biz heç vaxt qısa siyahıda olmamışıq, yeni bu nominasiyaya düşməmişik. Eyni zamanda da nominant olmamışıq, nə 9-luğa, nə də 5-yə düşmüşük. Bunun da çoxlu səbəbləri var. Bunun da ilk səbəbi odur ki, "Oskar" mükafatına namizəd olmaq üçün A kateqoriyalı festivalda iştirak vacibdir, yeni bu kateqoriyada iştirak edən filmin şansı daha çox olur. Nüfuzlu beynəlxalq mükafatda, nüfuzlu mükafatın alınması sənin filminə diqqət yaradır və sən Amerika Kino Akademiyası üzvə sənin filminə səs verilir. Eyni zamanda da film təqdim edildikdən sonra onun reklamına Amerika Kino Akademiyasının üzvləri arasında çoxlu pul xərclənməsi tələb olunur. "Oskar"a təqdim olunan filmin tez-tez nümayişi təşkil olunmalı, jurnallarda pullu reklamları yerləşdirilməlidir. Hələlik isə bizim kino şirkətlərinin buna imkanı yoxdur. Azərbaycan filmləri A kateqoriyalı festivalda nüfuzlu mükafat ala bilsə, xarici prodüserlər filmlərimizə maraq göstərər və onun reklamını da təşkil edə bilər. "Oskar mükafatına yalnız nüfuzlu festivalın nüfuzlu mükafatını aldıqdan sonra qazanmaq mümkündür. A kateqoriyalı festivalda mükafatımız olmadığı üçün, bizim filmlər "Oskar"a namizəd ola bilmir. Gürcüstan filmi isə olub" - deyə Ə.İ.Cabbarov qeyd etdi.

***İradə SARIYEVA***

№ 226 (4124) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

19 DEKABR 2019-cu il

www.baki-xeber.com

# Vanqanın 2020-ci il proqnozları...



**Məşhur baxıcı Vanqa ölümündən sonra da öz proqnozları ilə insanları təəcübləndirə bilir.**

"Milli.Az" xəbər verir ki, baxıcının 2020-ci il üçün də öz proqnozları var. Rusiya mətbuatına istinadən onları təqdim edirik. Onun dediklərinə inansaq, önümüzdəki ildə Alyaska, Yaponiya, Çin və Pakistanda dəhşətli bir sunami böyük itki və dağıntılara səbəb olacaq. Bundan başqa, Asiyanın bu bölgəsini Rixter cədvəli üzrə 8 bala qədər zəlzələ gözləyir. Qərbi Avropa ölkələrinə gəldikdə, Britaniya Avropa Birliyindən çıxdıqdan sonra bu cəmiyyət özü ciddi iqtisadi böhranla üzləşəcək. Bundan əlavə, Qərbi Avropa dini və etnik zəmində qarşıdurmalarla sarsılacaq, bu, AB-nin dağılmasının başlanğıcı olacaq. ABŞ prezidenti Donald Tramp isə eşitmə problemi ilə qəribə bir xəstəliyə tutulacaq. Ciddi bir iqtisadi böhran bütün dünyanı bürüyəcək, lakin Rusiya, 2020-ci ilin quraqlıq yayına baxmayaraq, bunu asanlıqla aradan qaldıracaq. Üstəlik, Vanqa Rusiyanın beynəlxalq aləmdəki mövqeyini gücləndirəcəyini və 2020-ci ildə hətta Moskva ilə Kiyev arasında çoxdan gözlənilən yaxınlaşmanın olacağını da proqnozlaşdırıb. Qeyd edək ki, Vanqa ümumiyyətlə tez-tez alqoritmik və rəmzi olaraq danışırdı, buna görə onun proqnozlaşdırdıqlarının çoxu fərziyyələr ola bilər. Buna misal olaraq "Su altında qalan Kursk şəhəri" proqnozunu xatırlatmaq kifayətdir. Mütəxəssislər şəhərin su altında qalacağını düşünsə də nəticədə "Kursk" sualtı gəmisində faciə yaşanmışdı. Vanqanın 2020-ci ilə dair proqnozlarına inanmaq və ya inanmamaq hər kəsin şəxsi işidir. Ancaq göründüyü kimi ölümündən 23 il sonra da kor qadının verdiyi proqnozların həqiqət olduğu ortaya çıxıb.

## 2019-cu ildə milyardçı adını qazanan şəxslər...

**"Forbes" jurnalı 2019-cu ildə milyardçı adını qazanan şəxslərin reytinqini tərtib edib. "Trend" bildirir ki, siyahıya "Amazon" şirkətinin təsisçisi Ceff Bezosun keçmiş xanımı Makkenzi Bezos rəhbərlik edir.**



O, bu il baş vermiş boşanma prosesindən sonra 34,5 milyard dollar varidata sahib olub. İkinci yerdə kanadalı iş adamı Entoni fon Mendl qərarlaşıb. O, "Mark Anthony Brands" içki məmulatları şirkətini təsis etməklə 3,5 milyard dollar qazanıb. İlk üçlüyü amerikalı investor Herbert Verthaum tamamlayır. O, 1970-ci ildə təsis etdiyi "Brain Power" rəngli linza şirkətindən əldə etdiyi gəliri birjaya yatırmaqla 2019-cu ildə 3,1 milyard dollar qazanıb. Reytinqə həmçinin, "Kylie Cosmetics" şirkətinin təsisçisi Kayli Cenner və rusiyalı dörd uşaq anası, "Wildberries" onlayn mağazasının təsisçisi Tatyana Bakalçuk daxil olub. Hər iki qadın bu il 1 milyard dollar gəlir əldə edib.

## "İnstagram"ın yeni xəbərdarlığı...

**Dünyanın ən böyük sosial media platformalarından olan "İnstagram" yeni funksiyası sayəsində platformaya şəkil yükləyən istifadəçilərə narahatedici sözlər haqqında xəbərdarlıq edəcək.**

"Milli.Az" xəbər verir ki, yeniliyin süni intellekt vasitəsilə təmin edilməsi gözlənilir. Qeyd edək ki, istifadəçilərin bu xəbərdarlığı görməzlikdən gələ bilmə seçimi də mövcuddur.

## Yeni il yolkası qadağan edilmiş əşyalarla bəzədilib

**Vilnüs hava limanında sərnişinlərdən müsadirə edilən əşyalar əsasında Yeni il yolkası quraşdırılıb.**

"AZƏRTAC" bildirir ki, Litvanın hava limanının təhlükəsizlik xidmətinin əməkdaşları tədbirsiz sərnişinlərdən qayçı, bıçaq, alışqan, atılmış gilizlər, bir sözlə, təyyarənin salonunda daşınması qadağan edilmiş əşyaları toplayaraq yolka ağacının bəzədilməsində istifadə edib. Hava limanının əməkdaşları bildiriblər ki, onlar bununla sərnişinlərə bayram əhval-ruhiyyəsi bəxş etməklə yanaşı, aviasiya təhlükəsizliyinin əhəmiyyəti haqqında maarifləndirici mesaj göndərməyə çalışıblar. "Əgər gələn il siz şəxsi, lakin qadağan olunmuş əşyalarınızın Yeni il yolkasından asılmasını istəmirsinizsə, növbəti reysə hazırlaşarkən yükdaşıma avadanlıqları ilə bağlı tələblərlə tanış olun", - deyə hava limanının əməkdaşları nəzərə çatdırıblar.

**Elan**

Muxtarzadə Rəşad Rafiq oğluna Azərbaycan Dövlət Dəniz Akademiyası tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Osmanova Şölə Məlik qızının adına, Bakı şəhəri, Qaradağ rayonu, Sahil qəsəbəsi, Zahid Qasımov küçəsi, ev 43 a, mənzil 53 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Qasımzadə Sənan Zakir oğluna Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Ağayev Ramiq Amil oğluna Texniki Universitetin nəzdində Bakı Texniki Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Quluzadə Ləman Natiq qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Pis şeylərə konsentrasiya olunmaq, xırda uğursuzluqlara fəlsəfi nöqteyi-nəzərdən yanaşmaq lazım deyil. İnsanlar komplimentlər baxımından xəsislik edirlər, bir-birlərini az tərifləyirlər, bu da bəzilərinin xətrinə dəyə bilər.



**Buğa** - Əvvəlcədən nəzərdə tutulmuş işləri həyata keçirmək mümkün olmayacaq. Şəxsi əlaqələrdə sülhün qorunması üçün güzəştlər etmək vacibdir. İnadkar adamlar güzəştə getməyəcəklər və mübahisələr yaradacaqlar.



**Əkizlər** - Yeni işlərə başlamaq üçün uğurlu gündür. Bir çox eksperimentlər və improvizasiyalar uğurlu alınacaq. Qonaq qəbul etmək yaxşıdır. Vacib məsələləri evdə müzakirə etmək yaxşıdır. Sərfəli razılaşmalar da ola bilər.



**Xərçəng** - Xarici təsir qarşısında həssassınız və arada sizə təzyiq göstərmək istəyən insanlar qarşısında müdafiəsizsiniz. Yanınızda çox yumşaqlıq etməyə, güzəştə getməyə yol verməyən insan olsa, yaxşıdır.



**Şir** - Bu gün həyat tonusu artır. Enerjiniz o qədər çoxdur ki, bu enerjini hara xərcləmək barədə düşünəcəksiniz. Yaxınlarınız sizin köməyinizə ehtiyac duya bilərlər, lakin çətin ki, bu barədə açıq müraciət etsinlər.



**Qız** - Öz planlarınıza yenidən baxın, əsas olanları ikinci dərəcəlilərdən ayırmağa çalışın, lazımsızları kənarlaşdırın. Öz imkanlarınıza tənqidi yanaşın, hər şeyi bacara bilməyəcəyinizi qəbul etmək çətindir.



**Tərəzi** - Öz hərəkətlərinizin və yaxın keçmişdə baş vermiş hadisələrin qiymətləndirilməsində problemlər yarana bilər. Siz faktlarla hesablaşmaq istəmirsiniz, öz fantaziyalarınız üzərində orientasiya qurmağa üstünlük verirsiniz.



**Əqrəb** - Siz ətrafdakı insanları çox yaxşı başa düşürsünüz və onlarla rahatlıqla ümumi dil tapa bilirsiniz. Bu gün işgüzar və şəxsi ünsiyyətlər və ciddi problemlərin həlli üçün uyğun gündür.



**Oxatan** - İşgüzar fəaliyyət yüksəkdir və bu, bəzi insanların bir sıra problemlərinin həllinə kömək edir. Yaxınlarınızla ünsiyyətdə ədəbli olun: bu gün təmizlik və səmimilik bəziləri tərəfindən kobudluq kimi qarşılana bilər.



**Oğlaq** - Qətiyyətlilik və qərarlılıq xüsusiyyətləri rəqiblərinizdən üstün olmağa, pis niyyətli insanların qarşısını almağa sizə kömək edəcək. Əgər sizin güclü düşmənləriniz varsa, nəzərə alın ki, bu gün açıq qarşıdurma üçün ən müvafiq gündür.



**Dolça** - Fenomenal iş qabiliyyətiniz sizin uğurunuzun açarıdır. Enerji və inadkarlıq tələb edən işlərdə sizin rəqibiniz yoxdur. Yorulmaq nə olduğunu bilmirsiniz, eyni işlə uzun müddət məşğul olsanız da, bezmirsiniz.



**Balıqlar** - İşgüzar münasibətlər - bu gün məhz həmin sfera üçün müsbət təmayüllər vəd edir. Buna görə də məhz bu gün üçün işgüzar görüşlər və kütləvi çıxışlar təyin etmək olar. Kübar tədbirdə iştirak da işgüzar münasibətlər üçün yaxşı vədlər verir.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Ailə cütlüyünün ümumi yaşı 211 il və 175 günə çatıb



**Dünyanın ən qocaman ailə cütlüyü - 106 yaşlı Con Henderson və 105 yaşlı Şarlotta nikahlarının 80 illiyini qeyd edib.**

"AZƏRTAC" bildirir ki, Con həyat yoldaşı Şarlottanı ABŞ-ın Texas ştatındakı Lonqhorn şəhərində keçirilən təntənəli mərasimə 1920-ci il modelli ikiyerlik avtomobillə gətirib və ona ilk görüşlərində olduğu kimi, gül dəstəsi hədiyyə edib. Con və Şarlotta 1934-cü ildə Texas Universitetində tanış olublar və 1939-cu ildə ailə həyatı qurublar. Dekabrın 16-da ailə cütlüyünün ümumi yaşı 211 il və 175 günə çatıb. Onların sözlərinə görə, uzunömürlülüyün və xoşbəxt ailə həyatının sirri mülayimlikdə və qarşılıqlı məhəbbətdədir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.